**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU**

*Əlyazması hüququnda*

**NƏCƏF ƏLƏSGƏR OĞLU MÜSEYİBLİ**

# ÖN ASİYA-QAFQAZ XALKOLİTİNDƏ LEYLATƏPƏ MƏDƏNİYYƏTİ

5505.02 – Arxeologiya

**Tarix üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

# A V T O R E F E R A T I

**BAKI – 2015**

*Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun "Etnoarxeologiya" şöbəsində yerinə yetirilmişdir.*

**Rəsmi opponentlər:**

R.M.Munçayev – Rusiya EA-nın müxbir üzvü, tarix üzrə elmlər doktoru, professor

V.B.Baxşəliyev – AMEA-nın müxbir üzvü, tarix üzrə elmlər doktoru

H.F.Cəfərov – tarix üzrə elmlər doktoru, professor

**Aparıcı təşkilat** – Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Ümumi tarix" kafedrası

Müdafiə " __27__ " ___01____ 2016-cı il saat "___ "- da Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu nəzdində 5502.01 – "Ümumi tarix", 5503.02 – "Vətən tarixi", 5507.01 – "Beynəlxalq münasibətlər tarixi", 5509.01 – "Tarixşünaslıq, mənbəşünaslıq və tarixi tədqiqat üsulları" ixtisasları üzrə tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru və birdəfəlik 5505.02 – "Arxeologiya" ixtisası üzrə tarix üzrə elmlər doktoru elmi dərəcələri almaq üçün dissertasiyaların müdafiəsini keçirən D.01.161 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan**: 1143, Bakı şəhəri, H.Cavid prospekti, 115.

Dissertasiya ilə Azərbaycan MEA A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivində tanış olmaq olar.

Avtoreferat "____"______________2015-ci ildə göndərilmişdir.

Dissertasiya Şurasının
elmi katibi, tarix üzrə
fəlsəfə doktoru **C.Ə.Bəhramov**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** XX əsrin ortalarından başlayaraq Azərbaycanın e.ə. VI-IV minilliklərə aid erkən əkinçilik mədəniyyətləri abidələrinin arxeoloji tədqiqinə başlanmışdır. Geridə qalmış 70 il ərzində onlarla abidələr aşkar edilmiş, geniş miqyaslı qazıntı işləri aparılmışdır. Bütün Qafqazda bu dövr abidələri daha çoxlu sayda Azərbaycanda aşkar edilmiş, ən geniş arxeoloji araşdırmalar da məhz bu ərazidə həyata keçirilmişdir. İlk dəfə olaraq ötən əsrin 50-ci illərində Naxçıvandakı I Kültəpədə O.H.Həbibullayev tərəfindən başlanılan qazıntılarla Cənubi Qafqazda erkən əkinçi-maldar təsərrüfatına əsaslanan keramikalı neolit və eneolit dövrlərinin sistemli, ardıcıl tədqiqinə başlanılmışdır. 60-70-ci illərdə Gəncə-Qazax bölgəsində neolit dövrünün Şomutəpə mədəniyyətinə aid abidələr, Qarabağda neolit və eneolit dövrlərinin abidələri arxeoloji tədqiqatlara cəlb edilmişdir. Eyni zamanda Naxçıvan, Muğan, Gəncə-Qazax bölgələrində sırf eneolit – xalkolit dövrünə aid abidələr qeydə alınmış, qazıntı işləri aparılmışdır. Qeyd etmək lazımdır ki, istehsal təsərrüfatına əsaslanan neolit dövrü abidələri, sonrakı – xalkolit dövrü abidələrindən daha geniş şəkildə tədqiq edilmişdir.

80-ci illərin əvvəllərində Qarabağda Ağdam rayonu ərazisində İ.H.Nərimanov tərəfindən xalkolit dövrünə aid Leylatəpə yaşayış məskəninin qazıntıları ilə Azərbaycanın və bütövlükdə Qafqazın e.ə. IV minilliyə aid tarixinin arxeoloji tədqiqində daha bir arxeoloji mədəniyyət – Leylatəpə mədəniyyəti kəşf edilmişdir. Leylatəpə abidəsinin tədqiqatları ilk dəfə olaraq Cənubi Qafqazın yerli zəmində təşəkkül tapan və Yaxın Şərq mədəniyyətləri ilə mədəni-iqtisadi əlaqələrə malik xalkolit komplekslərindən fərqli olaraq Ön Asiyadan bu ərazilərə yayılmış fərqli bir mədəniyyətin mövcudluğunu sübut edir. Leylatəpədə aparılan qazıntılar nəticəsində Cənubi Qafqazda bu mədəniyyətdən əvvəl, onunla sinxron və sonrakı mərhələlərə aid abidələrdən məlum olmayan dulus çarxında yüksək keyfiyyətlə hazırlanmış keramika məmulatı, saxsı qablarda körpə uşaq qəbirləri, metallurgiyanın yüksək inkişaf səviyyəsini göstərən tapıntılar bu mədəniyyətin Ön Asiya mənşəli olduğuna şübhə yeri qoymurdu. Bu, Qafqaz xalkolitində keyfiyyətcə yeni, daha yüksək səviyyəli bir mədəniyyət olmuşdur.

Leylatəpə yaşayış yerinin qazıntıları ilə yanaşı, həmin illərdə Qarabağda daha bir neçə bu tipli yaşayış məskəni aşkar edilsə də bu abidələrdə qazıntı işləri aparılmamışdır. Hələ 60-cı illərdə indiki Ermənistan ərazisində qazılmış, analoji keramikaya malik Texut yaşayış yerinin tədqiqatlarının nəticələri

əsasən ermәni dilində nəşr edilmiş, cənub-şərqi Gürcüstanın Berikldeebi yaşayış yerində isə kiçik həcmli qazıntı aparılmışdır. Hər iki abidənin qazıntılarının müəllifləri bu abidələrin sadəcə Yaxın Şərqlə sıx bağlı olduğunu yazmışlar.

2004-2005-ci illərə qədər Leylatəpə mədəniyyəti demək olar ki, yalnız eponim abidə əsasında məlum idi. Həmin illərdə Bakı-Tbilisi-Ceyhan neft və Cənubi Qafqaz qaz kəmərləri marşrutunda, Azərbaycanın qərb bölgəsində Leylatəpə mədəniyyətinə aid Böyük Kəsik, Poylu və s. yaşayış məskənlərinin, Soyuqbulaq kurqanlarının aşkar edilərək qazılması ilə bu mədəniyyət Azərbaycanın və Qafqazın arxeologiya elmində özünün əsaslı təsdiqini tapmış oldu. Bu abidələrin araşdırmaları ilə Leylatəpə mədəniyyətinin yaşayış məskənlərinin, keramika, daş, sümük və metal məmulatlarının səciyyəvi tipoloji xüsusiyyətləri, dəfn adətləri əsaslı şəkildə müəyyən edildi və bu mədəniyyətin daha geniş arealda yayıldığı sübuta yetirildi. 2005-ci ildə Soyuqbulaq kurqanlarının tədqiqatları Leylatəpə mədəniyyətinin bu tip qəbir abidələrinin mövcudluğunu sübut etməklə yanaşı, Cənubi Qafqazda kurqanların tarixinin əvvəllər məlum olduğundan daha min il qədim olduğunu göstərdi. Məhz Böyük Kəsik, Poylu və Soyuqbulaq abidələrinin tədqiqatları nəticəsində Leylatəpə arxeoloji mədəniyyətinin əsas səciyyəvi xüsusiyyətləri müəyyən edilmiş oldu.

Son illər Muğanda, Qarabağda və Qəbələ rayonunda Leylatəpə mədəniyyətinə aid çoxsaylı abidələr qeydə alınaraq tədqiqatlara cəlb edilmişdir. Ümumiyyətlə, Cənubi Qafqazda bu mədəniyyətə aid abidələr əsasən Azərbaycan ərazisində aşkar edilmişdir.

Leylatəpə mədəniyyəti abidələrinin tədqiqatları Azərbaycanın xalkolit dövrü tarixinin Ön Asiya mədəniyyətləri kontekstində araşdırılması üçün böyük əhəmiyyət kəsb edir. Yaxın Şərqdə bu mühüm tarixi mərhələ erkən dövlətlərin yaranma ərəfəsi, mərkəzləşmə meyllərinə əsaslanan istehsal ənənələrinin möhkəmlənməsi, cəmiyyətdə bütün bunlardan irəli gələn fərqli sosial-iqtisadi münasibətlərin təşəkkül tapması ilə səciyyələnir. Məhz bütün bunlar sonrakı mərhələdə Ön Asiyanın ən inkişaf etmiş bölgələrində – Mesopotamiya və Şərqi Anadoluda erkən dövlətlərin yaranmasına səbəb olmuşdur. Ön Asiya ilə mənşəcə bağlı Leylatəpə mədəniyyəti abidələri timsalında Azərbaycan da son xalkolit dövründə bütün bu tarixi proseslərin iştirakçısı olmuşdur. Araşdırmalar eyni zamanda Şimali Qafqazın məşhur Maykop arxeoloji mədəniyyətinin də məhz Leylatəpə mədəniyyəti ənənələri əsasında meydana çıxdığını sübut etmişdir. Leylatəpə mədəniyyətinin tədqiqatları Qafqazda e.ə. V min. sonu-IV minilliyə aid arxeoloji mədəniyyətlərin tarixi-xronoloji mövqeyinin müəyyən edilməsi

üçün demək olar ki, açar rolunu oynayır. Bütün bunlar dissertasiya işinin əhatə etdiyi məsələlərin aktuallığını göstərir.

**Tədqiqatın xronoloji çərçivəsi.** Leylatəpə mədəniyyəti abidələri son xalkolit dövrünə aiddirlər. Bu abidələrin xronologiyası mədəniyyətin araşdırılmasının ilk mərhələlərindən başlayaraq e.ə. IV minilliyin birinci yarısına aid edilmişdir. Eyni zamanda bəzi nəşrlərdə Leylatəpə mədəniyyətinin başlanğıc mərhələsinin e.ə. V minilliyin sonlarından başlandığı da qeyd edilmişdir. Belə xronoloji çərçivə ənənəvi arxeoloji üsulla, başlıca olaraq keramika məmulatı əsasında müəyyən edilmişdir. Son on ildə Böyük Kəsik, Poylu, Soyuqbulaq və Qalayeri abidələri üzrə ABŞ və Fransa laboratoriyalarında aparılan radiokarbon analizlərin nəticləri də e.ə. IV minilliyin birinci yarısını göstərmişdir. Lakin Böyük Kəsik yaşayış yeri üzrə iki analizin nəticələri həm də e.ə. V minilliyin sonlarını göstərmişdir. Leylatəpə mədəniyyəti ənənələrinin mənşə etibarı ilə bağlı olduğu Ön Asiya abidələri də (Arslantəpə VII, Amuk F, Təpə Qavra XII-IX və s.) e.ə. IV minilliyin birinci yarısına aid edilirlər. Qərb elmi ədəbiyyatında bu dövr Son Xalkolitin (LC) 2-ci mərhələsinin sonu, 3-cü mərhələ və 4-cü mərhələsinin əvvəli kimi müəyyənləşdirilmişdir.

**Mövzunun öyrənilmə səviyyəsi.** Leylatəpə arxeoloji mədəniyyətinin tədqiqi Azərbaycan və bütövlükdə Qafqaz arxeologiya elmində nisbətən yeni istiqamətdir. Buna görə də hazırkı şəraiti geniş araşdırmaların başlanğıc mərhələsi kimi qiymətləndimək olar. Bununla yanaşı, qeyd etmək lazımdır ki, son on ildə Leylatəpə mədəniyyətinə aid Böyük Kəsik, Poylu, Soyuqbulaq, Qalayeri və s. abidələrdə geniş qazıntı işləri aparılmış, zəngin maddi mədəniyyət qalıqları aşkar edilmişdir. Bu qazıntıların nəticələrinə dair monoqrafiyalar və çoxsaylı məqalələr dərc edilmişdir.

İ.H.Nərimanov 80-90-cı illərdə Leylatəpə yaşayış yerinin qazıntılarına həsr olunmuş bir neçə tezis nəşr etmişdir. 2001-ci ildə o, N.H.Əliyevlə birgə Azərbaycanın son eneolit dövrü abidələrinə həsr olunmuş kitab çap etdirmişdir. Həmin kitabda Leylatəpə abidəsinə də geniş yer verilmiş, bu abidənin keramika, daş və metal məmulatı, qəbir abidələri Yaxın Şərq abidələrinin tapıntıları ilə müqayisəli təhlil əsasında şərh edilmişdir.

2004-2009-cu illərdə Böyük Kəsikdə aparılmış qazıntıların nəticələrinə dair V.Kvaçidze, M.Hüseynov və F.Quliyev bir neçə məqalə və tezis çap etdirmişlər.

A.Ağalarzadə Leylatəpə mədəniyyətinin keramikasına dair f.d. dissertasiyasını müdafiə etmişdir. O, bu dissertasiyada və bununla bağlı məqalələrində Leylatəpə mədəniyyətinin keramika məmulatının hazırlanma

texnologiyası, tipoloji xüsusiyyətləri və müqayisəli təhlilindən bəhs etmişdir.

Son on ildə Leylatəpə mədəniyyəti abidələrində ən geniş qazıntı işləri və bu qazıntıların nəticələri əsasında bu mədəniyyətin arxeoloji materialları, Ön Asiya və Qafqaz xalkolitində yeri və s. probleminə dair çoxsaylı çap işləri müəllif tərəfindən həyata keçirilmişdir.

**Tədqiqatın mənbə bazası.** Dissertasiya işinin əsas tədqiqat obyekti Cənubi Qafqazın Leylatəpə mədəniyyəti abidələridir. Bu abidələrin bir neçəsi indiki şərqi Gürcüstan və indiki Ermənistan ərazisində qazılmışdır. Leylatəpə mədəniyyətinin bu gün məlum olan çoxsaylı abidələri Azərbaycan ərazisindədir. Tədqiqata cəlb edilmiş həmin abidələr Qarabağ, Gəncə-Qazax bölgələri, Qəbələ, Xaçmaz rayonlarındakı və qismən Muğan bölgəsindəki abidələrdir. Eyni zamanda Leylatəpə mədəniyyəti abidələri genetik bağlı olduqları Ön Asiya abidələri ilə ətraflı müqayisəli təhlil əsasında tədqiq edilmişdir. Cənubi Qafqazda özünəməxsus səciyyəvi xüsusiyyətləri ilə formalaşan Leylatəpə mədəniyyəti ənənələri ilə Şimali Qafqaza miqrasiya etmiş tayfaların Maykop arxeoloji mədəniyyəti meydana çıxmışdır. Məhz buna görə də Cənubi və Şimali Qafqazın eyni köklərə malik bu mədəniyyətləri, xüsusilə də onların kurqan abidələri, keramika və metal məmulatı birgə tədqiqata cəlb edilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Son xalkolit dövründə Şərqi Anadolu, Şimali Mesopotamiya və Qafqazda vahid keramika istehsalı ənənələrinə malik mədəniyyətlər yayılmışdır. Bu areala daxil olan Leylatəpə arxeoloji mədəniyyətinin Ön Asiya-Qafqaz kompleksləri sistemində yerinin, bu mədəniyyətin abidələri əsasında Azərbaycanın və bütövlükdə Cənubi Qafqazın xalkolit dövrü tarixinin öyrənilməsi dissertasiya işinin başlıca məqsədidir. Bu məqsədə nail olmaq üçün dissertasiyada aşağıdakı məsələlər həll edilmişdir:

– Leylatəpə mədəniyyətinin Ön Asiya kökləri;

– Cənubi Qafqazın xalkolit kompleksləri sistemində Leylatəpə mədəniyyətinin yeri;

– Şimali Qafqazın Maykop mədəniyyətinin təşəkkülündə Leylatəpə mədəniyyətinin rolu;

– Leylatəpə mədəniyyətinin yaşayış yerlərinin və qəbir abidələrinin Ön Asiya və Qafqaz abidələri ilə müqayisəli tədqiqi;

– Leylatəpə mədəniyyəti abidələri əsasında son xalkolit dövründə Ön Asiya-Qafqaz miqrasiyaları tarixinin öyrənilməsi;

– Leylatəpə mədəniyyətinin arxeoloji materiallarının Ön Asiya və Qafqazın analoji materialları ilə müqayisəli təhlili əsasında son xalkolit dövründə bölgədə maddi istehsal tarixinin öyrənilməsi;

– Leylatəpə mədəniyyəti abidələri əsasında Azərbaycanda və Cənubi Qafqazda sosial-iqtisadi münasibətlərin, əhalinin təsərrüfat məşğuliyyəti tarixinin tədqiqi.

**Dissertasiyanın elmi yeniliyi.** Tədqiqat işinin əsas elmi yenilikləri aşağıdakılardır:

1. İlk dəfə olaraq Leylatəpə mədəniyyəti kompleks şəkildə, Ön Asiya və Qafqazın xalkolit mədəniyyətləri kontekstində doktorluq dissertasiyası çərçivəsində tədqiq edilmişdir.

2. Leylatəpə mədəniyyətinin yaşayış məskənləri, onların memarlığının səciyyəvi xüsusiyyətləri Ön Asiya paralelləri əsasında müəyyən edilmişdir.

3. Leylatəpə mədəniyyətinin kurqanları və torpaq qəbirləri ilk dəfə olaraq müəllif tərəfindən aşkar edilərək tədqiq edilmişdir. Dissertasiyada Qafqazın və Ön Asiyanın analoji abidələri ilə müqayisəli təhlil əsasında bütövlükdə bu mədəniyyətin qəbir abidələri və dəfn adətlərinin səciyyəvi, lokal xüsusiyyətləri müəyyən edilmişdir.

4. İlk dəfə olaraq Leylatəpə mədəniyyətinin arxeoloji materialları geniş təhlil edilmiş, onların ümumi və fərqli, lokal xüsusiyyətləri şərh edilmişdir. Keramika məmulatının hazırlanma texnologiyası, tipoloji xüsusiyyətləri barədə ən son tapıntılar əsasında yeni fikirlər irəli sürülmüşdür. İlk dəfə olaraq keramika üzərindəki işarələr ətraflı araşdırılmış və onların semantikası təhlil edilmişdir. Abidələrin coğrafi yerləşməsindən və Ön Asiya ənənələrindən asılı olaraq Leylatəpə mədəniyyətinin daş məmulatının və sümük alətlərinin səciyyəvi xüsusiyyətləri və tipologiyası dəqiqləşdirilmişdir.

5. Leylatəpə mədəniyyətinin metal məmulatı ilk dəfə olaraq geniş tədqiq edilmiş, Yaxın Şərq və Qafqazın erkən metal istehsalı ənənələri sırasında Leylatəpə mədəniyyətinin metallurgiyasının yeri müəyyən edilmişdir.

6. Çoxsaylı arxeoloji tapıntılar, xüsusilə də keramika məmulatı əsasında ənənəvi arxeoloji üsulla və bununla yanaşı, yeni texnologiyalara əsaslanan radiokarbon analizlər əsasında Leylatəpə mədəniyyətinin xronologiyası və dövrləşdirilməsi müəyyən edilmişdir.

7. Yaşayış yerlərinin, qəbir abidələrinin və arxeoloji materialların səciyyəvi xüsusiyyətləri, müqayisəli təhlilləri əsasında Ön Asiya və Qafqazın xalkolit mədəniyyətləri sırasında Leylatəpə mədəniyyətinin tarixi-xronoloji mövqeyi müəyyən edilmişdir. İlk dəfə olaraq Leylatəpə mədəniyyətinin

köklərinin əvvəllər hesab edildiyi kimi Ubeyd və ya Uruk mədəniyyətləri ilə deyil, Ön Asiyanın – Şərqi Anadolu və Şimali Mesopotamiyanın son xalkoliti ilə bağlı olduğu sübut edilmişdir.

8. Şimali Qafqazın Maykop mədəniyyətinin Leylatəpə mədəniyyəti ənənələri əsasında təşəkkül tapması barədə daha əsaslandırılmış fikirlər irəli sürülmüşdür. Arxeoloji materialların təhlili ilə hər iki mədəniyyətin genetik bağlılığı, Leylatəpə-Maykop Mədəni-Tarixi Birliyinin mövcud olması əsaslandırılmışdır. Eyni zamanda qazıntılardan əldə edilmiş son tapıntılar və stratiqrafik göstəricilər əsasında Kür-Araz mədəniyyətinin erkən mərhələsinin Leylatəpə mədəniyyəti ilə sinxron olması və hər iki mədəniyyət arasında müəyyən əlaqələrin olduğu fikri irəli sürülmüşdür.

9. Leylatəpə mədəniyyəti abidələrini hələ elmdə əsaslı tədqiqini tapmamış "Sioni mədəniyyəti"nə aid edən bəzi əcnəbi müəlliflərin mövqeyinin yanlış olduğu faktik arxeoloji materialların müqayisəli tipoloji təhlili əsasında sübuta yetirilmişdir. Eyni zamanda, Leylatəpə mədəniyyətinin bir sıra abidələrini Maykop mədəniyyətinə aid edən bəzi müəlliflərin mülahizələrinin elmi məntiqdən uzaq olması mövcud tapıntılarla əsaslandırılmışdır.

10. Leylatəpə mədəniyyəti cəmiyyətinin sosial strukturu, erkən idarəçilik ənənələri, dəfn adətləri, təsərrüfat və sənətkarlıq sahələri barədə ilk dəfə olaraq ətraflı fikirlər irəli sürülmüşdür.

Bütün bu elmi yeniliklər müəllifin Leylatəpə mədəniyyəti abidələrində son on ildə apardığı geniş miqyaslı qazıntıların nəticələrinə əsaslanır.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Dissertasiyanın nəticələri aşağıdakı istiqamətlərdə tətbiq edilə bilər:

– Azərbaycanın, Qafqazın və Yaxın Şərqin xalkolit dövrünün arxeoloji tədqiqinin problemlərinin həllində;

– Çoxcildlik Azərbaycan tarixi və Azərbaycan arxeologiyasının yazılmasında;

– Xalkolit dövründə Ön Asiya-Qafqaz miqrasiyaları və iqtisadi-mədəni əlaqələri üzrə ümumiləşdirilmiş elmi əsərlərin yazılmasında;

– Azərbaycan və Qafqaz arxeologiyasına dair dərslik və metodik vəsaitlərin hazırlanmasında;

– Ali məktəblərdə ixtisas kurslarının tədrisində;

– Elmi-kütləvi nəşrlərin hazırlanmasında.

**Dissertasiyanın aprobasiyası.** Uzunmüddətli araşdırmaların nəticəsi olan dissertasiya işi Azərbaycan MEA Arxeologiya və Etnoqrafiya İnstitutunun "Etnoarxeologiya" şöbəsində hazırlanmışdır. Dissertasiya işinin əsas nəticələri müəllifin mövzuya aid monoqrafiya və məqalələrində nəşr edilmişdir.

İşin əsas tezisləri müxtəlif beynəlxalq konfransların toplularında, AAK-ın tövsiyyə etdiyi jurnallarda və xarici ölkə nəşrlərində öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya işi giriş, 7 fəsil, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısından, əlavə edilmiş cədvəllərdən və illüstrasiyalardan ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Əsərin **"Giriş"** hissəsində mövzunun aktuallığı, tədqiqatın xronoloji çərçivəsi, məqsəd və vəzifələri, öyrənilmə səviyyəsi, elmi yeniliyi, praktik əhəmiyyəti kimi məsələlər öz əksini tapmışdır.

Dissertasiyanın **I fəsli "Leylatəpə arxeoloji mədəniyyətinin öyrənilmə tarixi"** adlanır. Bu fəsildə göstərilir ki, İ.H.Nərimanov tərəfindən keçən əsrin 80-ci illərində kəşf edilmiş Leylatəpə mədəniyyəti 2004-cü ilə qədər demək olar ki, yalnız Qarabağda, Ağdam rayonu ərazisində qazılmış eyni adlı abidə əsasında məlum idi. Həmin ildən başlayaraq qərb bölgəsində Böyük Kəsik, Poylu, Soyuqbulaq abidələrinin aşkar edilməsi ilə Leylatəpə mədəniyyətinin öyrənilməsinin əsas mərhələsi başlanmışdır. Məhz bu abidələrin müəllif tərəfindən tədqiqatları əsasında Leylatəpə mədəniyyəti Qafqaz arxeologiya elmində özünə vəsiqə qazanmış oldu. Sonrakı illərdə Qəbələdə Qalayeri, Muğanda Alxantəpə və Qarabağda bir sıra yaşayış yerlərinin aşkar edilərək qazılması ilə Leylatəpə mədəniyyəti barədə məlumat bazası daha da zənginləşmişdir. Fəsildə bütün bu abidələr üzrə aparılan araşdırmaların nəticələri təhlil edilmişdir.

**II Fəsil "Leylatəpə mədəniyyətinin yaşayış məskənləri"** adlanır. Bu fəsildə yaşayış məskənlərinin ümumi səciyyəsi, abidələrin yayılma arealı, memarlıq və tikinti texnikasının Ön Asiya-Qafqaz analogiyaları kimi məsələlər öz əksini tapmışdır. Yaşayış yerlərində aparılan qazıntılar zamanı aşkara çıxarılmış tikililər, müxtəlif məişət qalıqları araşdırılmışdır. Müəyyən edilmişdir ki, bəzi abidələrdə çiy kərpicdən (Leylatəpə, Berikldeebi) evlər tikilmiş[1] digərlərində isə möhrə, çubuqhörmə, daş tikililərdən və yarımqazmalardan (Böyük Kəsik, Poylu) istifadə edilmişdir.[2] Qalayerində isə tikililər, analoqu yalnız Arslantəpənin VII təbəqəsindən məlum olan gil

---

[1] Алиев Н., Нариманов И. Культура Северного Азербайджана в эпоху позднего энеолита. Баку: «Агридаг», 2001. Глонти Л.И., Джавахишвили А.И. Новые данные о многослойном памятнике эпохи энеолита–поздней бронзы в Шида Картли–Бериклдееби //КСИА, №192, 1987.

[2] Müseyibli N.Ə. Böyük Kəsik eneolit dövrü yaşayış məskəni. Bakı: Nafta-Press, 2007.

qatlarından qurulmuşdur.[1]

**III Fəsil "Qəbir abidələri və dəfn adətləri"** adlanır. Burada Leylatəpə mədəniyyətinin kurqanları, saxsı qab qəbirləri və torpaq qəbirləri araşdırılmış, onlar Ön Asiyanın və Qafqazın analoji abidələri kontekstində təhlil edilmişdir.

Birinci yarımfəsil kurqanların təhlilinə həsr olunmuşdur. Leylatəpə mədəniyyətinə aid kurqan tipli qəbir abidələrinin mövcudluğu 2005-ci ildə Soyuqbulaq kurqanlarının tədqiqi ilə sübuta yetirilmişdir. Əvvəllər Seyidli və Kavtisxevi kurqanları qazılsa da onların xalkolit dövrünə və Leylatəpə mədəniyyətinə aidliyi Soyuqbulaq kurqanlarının aşkar edilməsindən sonra mümkün olmuşdur.

Soyuqbulaq kurqan çölündə aparılan qazıntılar buradakı kurqanların strukturunu, dəfn adətini, arxeoloji materialların xüsusiyyətlərini təhlil etməyə imkan vermişdir.

Qazılmış Soyuqbulaq kurqanlarının örtüyü çay daşları qarışıq torpaqdan ibarətdir. Daşların yerləşmə vəziyyətinə görə kurqan örtüklərini 2 qrupa ayırmaq olar:

1) Mərkəzdə sıx tökülmüş daş yığımı və onu əhatə edən kromlex tipli düzümə malik kurqan örtükləri.

2) Daşların pərakəndə, nizamsız töküldüyü kurqan örtükləri.

Kurqan örtükləri altında aşkar edilmiş qəbir kameralarını 2 tipə bölmək olar:

1) Materiküstü və ya yerüstü qurulmuş qəbir kameraları

2) Materikdə qazılmış qəbirlər.[2]

Soyuqbulaqda daha çox sayda aşkar edilmiş arxeoloji materiallar keramika məmulatından ibarət olmuşdur. Ümumiyyətlə, qəbir avadanlığı olduqca zəifdir. Kurqanların əksəriyyətinin avadanlığı bir neçə saxsı qab fraqmentlərindən ibarət olmuşdur. Bəzi kurqanlarda isə yalnız bir ədəd qab fraqmentinə rast gəlinmişdir. Aşkar edilmiş keramika məmulatının yalnız bəzilərinin gilinin tərkibi bitki qatışıqlıdır. Digər bütün fraqmentlər təmiz tərkibli və ya qum qatışıq gildən hazırlanmış qablara məxsusdur. Kurqanlarda cəmi bir neçə bütöv qaba rast gəlinmişdir. 16 №-li kurqanda aşkar edilmiş saxsı qab fraqmentlərindən biri qara cilalı nazik divarlı kuzə tipli qaba aiddir. Narın qum qatışıqlı gildən hazırlanmış bu qabın bütün səthi yuxarıdan aşağı batıq

---

[1] Müseyibli N.Ə. Qəbələ rayonundakı Qalayeri xalkolit dövrü yaşayış məskəni Ön Asiya – Qafqaz miqrasiyaları kontekstində // Azərbaycan arxeologiyası və etnoqrafiyası. 2013, №1.

[2] Мусеибли Н.А. Курганы Союгбулага //Материалы международной научной конференции «Кавказ: археология и этнология», Азербайджан, Шамкир, 11-12 сентября, 2008. Баку, 2009[a], с. 54-55.

zolaqlarla örtülmüşdür. Bu qabın ən yaxın analoqları Maykop mədəniyyəti abidələrindən məlumdur.[1]

18 №-li kurqanda aşkar edilmiş *Coba bowl* tipli kasanın paralelləri Şərqi Anadolu-Şimali Mesopotamiyanın Uruka qədərki xalkolit abidələrindən – Arslantəpə, Oylum Höyük,[2] Hammam at Türkman[3] və s. abidələrdən məlumdur.

Bəzi Soyuqbulaq qəbirlərindən aşkar edilmiş kəsicilər və nüvələr daha arxaik – mezolit və neolit səciyyəli arxeoloji materiallardır. Belə arxaik səciyyəli alətlərə Leylatəpə, Böyük Kəsik, II Poylu kimi Leylatəpə mədəniyyətinin yaşayış məskənlərində də rast gəlinmişdir. Belə faktların analoqu Maykop mədəniyyəti abidələrindən məlumdur. Belə ki, Şimali Qafqazda bu mədəniyyətin bəzi yaşayış yerlərində, həmçinin böyük Maykop kurqanında, bütövlükdə bölgə üçün səciyyəvi olmayan mikrolitlər aşkar edilmişdir. Maykop mədəniyyətinin qəbir abidələrində mikrolit alətlərin aşkar edilməsini R.M.Munçayev yerli deyil, Mesopotamiya ənənələri ilə əlaqələndirir və Yaxın Şərqdə istifadədən çoxdan çıxmış belə alətlərin III minilliyə qədər ayin mərasimlərində müntəzəm şəkildə istifadə edildiyini yazır.[4] Soyuqbulaq kurqanlarında mikrolitlərin və digər arxaik səciyyəli daş alətlərin aşkar edilməsini də eyni səbəblərlə izah etmək olar.

5 №-li kurqanda və 1 №-li (2006) kurqanda, aşkar edilmiş saplaqsız xəncərlərin Maykop mədəniyyəti abidələrindən çoxsaylı analoqları məlumdur. Digər tərəfdən, bu xəncər qəbir kamerasının küncündə aşkar edilmişdir. Maykop mədəniyyəti qəbirlərində də belə xəncərlər kameranın küncündə və divarın dibində tapılmışdır. Onların burada dəfn edilmiş insanın geyimi və ya skeleti ilə heç bir bağlılığı yoxdur.[5]

Fikrimizcə Soyuqbulaq kurqanlarının meydana çıxması onları qurmuş

---

[1] Мунчаев Р.М. Майкопская культура. Археология. Ч. II. Эпоха бронзы Северного Кавказа. М: «Наука», 1994

[2] Helwing B. The Oylum Höyük western terrace Post-Ubaid assemblage and its plase within the late Chalcolithic of Western Asia // Varia Anatloica XXVII. Affer the Ubaid: interpreting change from the Caucasus to Mesopotamia at the down of urban civilization (4500-3500 Bc). Ed. by C.Marro. Paris: 2012. p. 2011; Balossi Restelli F. and Helwing B. Traditions west of the Euphrates at the beginning of the late Chalcolithic. Characteristics, definitions, and supra-regional correlations // Varia Anatolica XXVII. Paris: 2012. p. 292-293.

[3] Akkermans P.M. M.G. The period V pottery. İn M.N. van Loon (ed.) // Hammam et-Turkman I. Report on the University of Amsterdam's 1981-84 Excavations in Syria I. Nederlands Historisch-Archeologisch İnstitut te İstanbul, 1988, p. 287-350. p. 312-313.

[4] Мунчаев Р.М. Майкопская культура, с. 189.

[5] Кореневский С.Н. Кинжалы раннемайкопского типа на Кавказе. //Материалы и исследования по археологии Северного Кавказа. Выпуск 9. Армавир: 2008, с. 13-14.

insanların təsərrüfat həyatının xüsusiyyətləri ilə birbaşa bağlı olmuşdur. Məlumdur ki, Leylatəpə mədəniyyəti yaradıcıları olan Ön Asiya tayfaları Cənubi Qafqaza köç edən zaman Yaxın Şərqdə oturaq, protoşəhər sivilizasiyası inkişaf etməkdə idi.[1] O zaman ölüləri bir qayda olaraq yaşayış yerlərində dəfn edirdilər və qəbirlərin üstündə kurqan qurmaq adəti mövcud deyildi. Cənubi Qafqaza miqrasiya edən belə dəfn adətinə malik əhalinin yeni coğrafi arealları mənimsəməklə əlaqədar olaraq mütəmadi yerdəyişmələrlə müşayət edilən təsərrüfat həyatında da köklü dəyişikliklər baş vermişdir. Belə yeni təbii-coğrafi şəraitdə vəfat etmiş tayfa üzvlərinin qəbirlərinin yerinin itməməsi üçün onların üstünə çoxlu daşlar tökürdülər və bununla da Cənubi Qafqazda ilk kurqan tipli qəbirlər yaranırdı. Heç də təsadüfi deyil ki, bu vaxtadək Leylatəpə mədəniyyətinin yalnız iki yaşayış yerində və məhdud sayda böyüklərə aid qəbirlər aşkar edilmişdir. Kurqanlarda dəfnetmə adəti bir qədər sonra Şimali Qafqazda, təsərrüfatının əsasının köçmə maldarlıqdan ibarət olan Ön Asiya miqrantları – Maykop mədəniyyəti əhalisi tərəfindən daha geniş yayılmışdır. Əlbəttə, Soyuqbulaq kurqanlarının yaranma səbəbləri barədə gələcəkdə yeni faktların aşkarlanacağı istisna deyil və həmin faktlar irəli sürdüyümüz bu fikrin daha dərindən əsaslandırılmasına imkan yaradacaqdır.

Maykop mədəniyyətinə aid qəbir kameralarının şimali-qərb – cənubi-şərq və şimali-şərq – cənubi-qərb istiqamətli olmasını bu mədəniyyəti Ön Asiya mənşəli hesab edən tədqiqatçılar Təpə Qavranın X$^{a}$ – VIII$^{b}$ təbəqələrində aşkar edilmiş qəbirlərin və məbədlərin həmin istiqamətli olması ilə əlaqələndirirlər.[2] Bu fikirlərlə razılaşaraq belə hesab edirik ki, Leylatəpə mədəniyyəti qəbirlərinin şimali-qərb – cənubi-şərq və şimali-şərq – cənubi-qərb istiqaməti eyni, Ön Asiya (Təpə Qavra və s.) kökləri ilə bağlıdır.

Qəbir abidələrində cənubi-şərq – şimali-qərb istiqaməti ilə əlaqədar digər bir məsələni də qeyd etmək lazımdır. Bu, kurqanların həmin istiqamət üzrə düzülməsi ilə bağlıdır. Üst-Cequtinski kurqanlarının müəyyən qanunauyğunluqla cənubi-şərq – şimali qərb istiqamətində düzülməsi R.M.Munçayev və A.L.Neçitaylo tərəfindən qeyd edilmişdir.[3] Se Qirdan

---

[1] Антонова Е.В. Месопотамия на пути к первым государствам. М.: «Восточная литература», 1998; Frangipane M. Yakındoğuda devletin doğuşu. İstanbul: Kanaat Basımevi, 2002.

[2] Андреева М.В. К вопросу о южных связях майкопской культуры //СА, 1977, № 1, с. 55; Трифонов В.А. Некоторые вопросы переднеазиатских связей майкопской культуры //КСИА, вып. 192, 1987. с. 20.

[3] Мунчаев Р.М., Нечитайло А.Л. Комплексы майкопской культуры в Уст-Джегутинском могильнике //СА, №3, 1966. с. 133.

kurqanları da eyni istiqamətdə düzülmüşdür.[1] Maraqlıdır ki, Soyuqbulaq kurqanları da məhz cənubi-şərq – şimali-qərb istiqaməti üzrə yerləşmişlər.

2004-cü ildə Soyuqbulaqda kurqanlar çölünün aşkar edilməsi və burada arxeoloji qazıntıların aparılması Cənubi Qafqazda son xalkolit dövründə kurqanlarda dəfnetmə adətinin mövcudluğunu əsaslı şəkildə sübut etdi. Soyuqbulaq tapıntılarına qədər Cənubi Qafqazda ən qədim kurqanlar erkən tunc dövrünə – e.ə III minilliyə aid kurqanlar hesab edilirdi. Soyuqbulaq qazıntıları Cənubi Qafqazda ən qədim kurqanların Leylatəpə mədəniyyəti tayfalarına məxsus olduğunu sübut etdi.

"Cənubi-Şərqi Avropanın erkən kurqanları nəzəriyyəsi, Maykop kurqanları və Leylatəpə mədəniyyəti kurqanlarının mənşəyi məsələsi" adlı ikinci yarımfəsil Leylatəpə mədəniyyətinin kurqan tipli abidələrinin müqayisəli təhlili və genezisi problemlərinə həsr olunmuşdur.

S.N.Korenevskiy 2012-ci ildə kurqan mövzusuna dair nəşr etdirdiyi kitabında bu məsələyə də yer ayırmışdır. Müəllif burada Maykop mədəniyyəti kurqanlarının cənubi-şərqi Avropanın e.ə. V minilliyə aid kurqanlarının təsiri altında yarandığını əsaslandırmağa çalışmışdır. Daha sonra müəllif mahiyyət etibarilə Leylatəpə mədəniyyəti kurqanlarının meydana çıxmasında Maykop kurqanlarının təsirinin olduğunu qeyd edir.[2]

Lakin e.ə. V minilliyə aid Avropa kurqanları ilə Maykop mədəniyyəti kurqanları arasında kəskin fərqlər vardır. Şimal kurqanları ilə Maykop kurqanları arasında heç bir xronoloji bağlantı yoxdur. Maykop kurqanları e.ə. IV minilliyin birinci yarısına aiddirlər. Müvafiq olaraq Maykop əhalisi ilə Şimalın eneolit əhalisi arasında heç bir əlaqə olmamışdır. Bu məsələdə qəbirlərin üstündə kurqan örtüyünün deyil, həmin qəbirlərin kameralarının quruluşu, arxeoloji materiallar və dəfn adətinin xüsusiyyətləri həlledici rola malikdir.

Hər hansı Maykop mədəniyyəti kurqanında Şimalın eneolit dövrü kurqanlarının arxeoloji materiallarının analogiyası aşkar edilməmişdir. Hər iki mədəniyyətin qəbirlərində dəfn qaydası da müxtəlifdir: Şimal kurqalarında arxası üstdə, ayaqlar bükülü, Maykop kurqanlarında isə yanı üstdə bükülü vəziyyətdə dəfnlər icra edilmişdir. Şimalın eneolit mədəniyyəti ilə Maykop mədəniyyəti tayfaları arasında heç bir əlaqənin olmadığı halda kurqan adəti birincilərdən ikincilərə necə ötürülə bilərdi? Müvafiq olaraq

---

[1] Muscarella O.W. The Tumuli at Se Girdan: Second Report //Metropolitian Museum Journal. Vol. 4, 1971; Трифонов В.А. Курганы майкопскопа типа в северо-западном Иране //Судьба ученого. К 100-летию со дня рождения Бориса Александровича Латынина. Санкт-Петербург, 2000.

[2] Кореневский С.Н. Рождение кургана. М.: «Таус», 2012, с. 107-108.

Maykop kurqanları heç bir halda Şimalın eneolit kurqanlarının təsiri altında yarana bilməzdi və Leylatəpə mədəniyyəti kurqanlarının yaranması üçün baza ola bilməzdi. Qeyd edilən bütün bu xüsusiyyətləri ilə, Maykop kurqanları məhz Cənubi Qafqazın Leylatəpə mədəniyyəti kurqanları, xüsusilə də Soyuqbulaq kurqanları ilə tam eyniyyət təşkil edib onlarla mədəni mənşə baxımından genetik bağlıdır. Bütün bu faktlar Maykopluların kurqan ənənəsini Şimalın eneolit mədəniyyətlərindən mənimsəməsi barədə S.N.Korenevskinin fikirlərinin əsassız olduğunu göstərir. Digər tərəfdən, Leylatəpə mədəniyyəti kurqanları Maykop mədəniyyəti kurqanlarından nisbətən qədim dövrə aiddir. Ümumiyyətlə, Maykop mədəniyyətinin Leylatəpə mədəniyyəti ənənələri əsasında təşəkkül tapması indi tədqiqatçılarda şübhə doğurmur. Maykop mədəniyyəti kurqanlarının da Leylatəpə ənənələri əsasında meydana çıxması fikrinin alternativi yoxdur.

Avrasiyanın geniş ərazilərində e.ə. V minillikdən başlayaraq yayılmış kurqan tipli qəbir abidələrinin yaranmasının tarixi kökləri onilliklər ərzində tədqiqatçıları düşündürmüşdür. Müəlliflər daha çox kurqanların mənşəyi barədə monosentrik nəzəriyyə tərəfdarı olaraq onların Cənubi-Şərqi Avropadan yayıldığı fikrindədirlər. Elmi ədəbiyyatda kurqan mövzusu ilə əlaqədar geniş müzakirə edilən məsələlərdən biri də bu tip abidələrin Cənubi-Şərqi Avropa çöllərində hind-avropa mənşəli tayfalarla bağlı olmasıdır. Bu konsepsiyanın tərəfdarları kurqanların hind-avropalılar tərəfindən bu ərazidə yaradıldığını və ətraf regionlara yayıldığını yazırlar.[1]

Hər hansı qəbir tipinin, o cümlədən kurqanların yalnız konkret xronoloji çərçivədə, müəyyən coğrafi ərazidə və vahid mədəniyyətin arealında və ya yaxın təsir dairəsində yayılmasından söhbət gedə bilər. Bu zaman eyni mədəniyyətin ənənələri – qəbirlərin və dəfn adətlərinin səciyyəvi xüsusiyyətləri, arxeoloji materialların identikliyi həmin yayılma arealında da müşahidə edilməlidir. Nə Leylatəpə mədəniyyəti kurqanlarında, nə də Cənubi-Şərqi Avropa kurqanları arealına daha yaxın bölgədəki Maykop mədəniyyəti kurqanlarında bu identiklik və ya Şimal kurqanlarının təsiri izlənilmir. Əksinə, Leylatəpə və Maykop mədəniyyətləri hind-avropalılara heç bir aidiyyatı olmayan Ön Asiyanın vahid keramika ənənəsinə, Cənubi Qafqazda yaranmış kurqanlarda dəfn adətinə malikdirlər. Bütün bunlar Avrasiyanın ayrı-ayrı regionlarında müxtəlif mədəniyyətlərin arealında

[1] Даниленько В.Н. Неолит Украины. Киев: «Науково думка», 1969; Gimbutas M. The earliest wave of Eurasian Steppe Pastoralists into Cooper Age of Europe // The Journal of Indo-European studies. V.5. №4. 1977; Гимбутас М. Цивилизация Великой Богини: мир Древней Европы. М: «Росспен», 2006.

kurqanların fərqli variantlarının mövcud olduğunu, kurqanlarda dəfn adətinin hind-avropalılar tərəfindən Cənubi-Şərqi Avropadan Qafqaz istiqamətinə yayılması fikrinin düzgün olmadığını göstərir.[1]

Üçüncü və dördüncü yarımfəsillər körpə uşaqların saxsı qablarda dəfnləri və torpaq qəbirlərinə, bu növ dəfn adətlərinin Ön Asiya-Qafqaz analogiyalarına həsr olunmuşdur.

Leylatəpə mədəniyyəti abidələrindən aşkar edilmiş saxsı qablarda uşaq qəbirləri Qafqazda bu mədəniyyətə qədər və ondan sonra heç bir abidədən məlum deyildir. Məhz Leylatəpə arxeoloji mədəniyyətinin fərqləndirici xüsusiyyətlərindən biri Ön Asiya ənənələri ilə bağlı olan müxtəlif tipli gil qablarda körpə uşaqların dəfn edilməsidir. Maraqlıdır ki, qablarda cəmi bir neçə aylıq yaş və ya təqribən bir yaş həddində vəfat etmiş uşaqlar dəfn edilmişdir. Belə qəbirlər Leylatəpə, Çinartəpə, Berikldeebi, Böyük Kəsik, I və II Poylu, Qalayeri yaşayış məskənlərində və Soyuqbulaq kurqan çölündə aşkar edilmişdir.[2] Dəfnlər küp, küpə, boşqab, qazan tipli müxtəlif saxsı qablarda icra olunmuşdur. Qalayeri qəbirləri istisna olmaqla digər abidələrdəki qəbirlərin istiqaməti şimali-qərb – cənubi-şərq olmuşdur.

Məlum olduğu kimi Yaxın Şərqin neolit və xalkolit dövrlərinə aid yaşayış məskənlərinin əksəriyyətində körpə uşaqların gil qablarda dəfn edilməsi adəti mövcud olmuşdur.[3]

Bir sıra tədqiqatçılar belə qəbirləri tikililər üçün qurban verilmiş uşaqların qəbirləri olması fikrini irəli sürmüşlər.[4] Lakin I Böyük Kəsikdə və Soyuqbulaq kurqanlarında aparılan qazıntılar bu fikrin düzgün olmadığını

---

[1] Müseyibli N. Leylatəpə mədəniyyəti kurqanlarının mənşəyi "kurqanlar və qədim hind-avropalılar" nəzəriyyəsi kontekstində // Azərbaycan MEA-nın Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, 2015, №1, s. 4.

[2] Алиев Н., Нариманов И. Культура Северного Азербайджана в эпоху позднего энеолита; Глонти Л.И., Джавахишвили А.И. Новые данные о многослойном памятнике эпохи энеолита–поздней бронзы в Шида Картли–Бериклдееби; Müseyibli N.Ə. Leylatəpə mədəniyyəti tayfalarının gil qablarda dəfn adəti (etnoarxeoloji tədqiqat) // "Azərbaycan arxeologiyası və etnoqrafiyası", 2007, №1; Мусеибли Н.А. Захоронение младенцев в глиняных сосудах у племен лейлатепинской культуры //Отражение цивилизационных процессов в археологических культурах Северного Кавказа и сопредельных территорий (Юбилейные XXV «Крупновские чтения» по археологии Северного Кавказа). Тезисы докладов. Владикавказ, 2008; Najafov Sh. Excavations of Poylu I settlement // Azerbaijan and Azerbaijanis. №1-2. Baku: Elm, 2011; Müseyibli N. Leylatəpə mədəniyyətinin qəbir abidələri və dəfn adətləri. Bakı: Nafta-Press, 2014.

[3] Массон В.М. Первые цивилизации. Ленинград: «Наука» 1989, с. 87; Esin U. Aşıklı Höyük Kurtarma Kazıları // Türkiye arkeolojisi ve İstanbul Universitesi. Ankara: Başak Matbaaçılık ve Tanıtım Hizmetleri Ltd. Şti., 2000, s. 83.

[4] Антонова Е.В. Обряды и верования первобытных земледельцев Востока. М.: «Наука» 1990, с. 86.

göstərir. Hər halda belə bir nəticəni Leylatəpə mədəniyyətinə aid etmək olmaz. Belə ki, I Böyük Kəsikdəki 3, 4 və 5 №-li qəbirlər, yuxarıda qeyd edildiyi kimi, yaşayış məskəninin lap kənarında və yığcam şəkildə aşkar edilmişdir. Bundan əlavə, qeyd edildiyi kimi, gil qablardakı uşaq dəfnlərinə Soyuqbulaq kurqan çölündə də rast gəlinmişdir. Orada bu qəbirlər bəzi kurqanların örtüyündə və kurqanlararası sahələrdə aşkar edilmişdir.[1]

Qeyd edildiyi kimi, Leylatəpə mədəniyyətinin haqqında bəhs etdiyimiz qəbirlərinin istiqamətində şimal, qərb və şimali-qərb əsas götürülmüşdür. Maraqlıdır ki, Soyuqbulaqda aşkar edilmiş gil qablardan ibarət qəbirlərin və kurqanaltı qəbirlərin istiqaməti də şimali-qərb – cənubi-şərq, şimal-cənub istiqamətlidirlər. Bütün bunlar Leylatəpə mədəniyyəti tayfalarının dəfn adətlərində istiqamətin seçilməsi məsələsində (şimali-qərb) müəyyən qaydaların mövcudluğunu göstərir. Çox güman ki, şimali-qərb dəfn mərasimi üçün müəyyən edilmiş istiqamət olmuşdur. Bəzi hallarda qəbirlərin və ya skeletlərin şimal və ya qərb istiqaməti şimali-qərb istiqamətindən təsadüfi yayınma olub düşünülmüş, məqsədyönlü şəkildə icra edilməmişdir[2].

Maraqlıdır ki, Maykop mədəniyyəti kurqanlarının böyük bir qrupunun qəbir kameraları da şimali-qərb – cənubi-şərq istiqamətli olmuşdur[3]. Belə bir fakt Leylatəpə və Maykop mədəniyyətləri arasında genetik bağlılığı göstərən daha bir sübutdur.

Mənşə etibarilə Leylatəpə mədəniyyətinə bağlı olan Maykop mədəniyyətində gil qablarda körpə uşaqların dəfnlərindən ibarət qəbirlər aşkar edilməmişdir. Görünür, bu adət Şimali Qafqaza yayılmadan Leylatəpə mədəniyyəti arealında sıradan çıxmışdır. Ola bilsin ki, bu həm də Maykop mədəniyyətinin yaşayış yerlərinin zəif öyrənilməsi ilə bağlıdır və gələcəkdə belə qəbirlərin bu mədəniyyətin abidələrində aşkar ediləcəyi istisna deyildir.

Leylatəpə mədəniyyətinə aid digər qəbir tipi – torpaq qəbirləri ilk dəfə 2005-ci ildə II Poyluda qazıntılar zamanı aşkar edilmişdir. Burada, yaşayış məskənində iki belə qəbir qazılmışdır. Onların hər ikisində dəfn arxası üstdə, ayaqlar zəif (yarıbükülü) və sıx bükülü vəziyyətdə, birincidə əllər çiyinlərə yönəlmiş, ikincidə isə əllər qurşaqda olmaqla icra edilmişdir.[4] Ön

---

1 Мусеибли Н.А. Позднеэнеолитические курганы Акстафинского района //Материалы международной научной конференции «Археология, этнология, фольклористика Кавказа». Баку: "Nurlar" 2005, с. 136.

2 Müseyibli N.Ə. Eneolit dövrü I Böyük Kəsik yaşayış məskənində arxeoloji qazıntıların nəticələri // "Azərbaycan arxeologiyası və etnoqrafiyası", № 1, 2006, s. 13.

3 Кореневский С.Н. Древнейшее оседлое население на среднем Тереке. М: Знание, 1993, с. 35-42.

4 Мусеибли Н.А. Результаты раскопок поселения Пойлу II Лейлатепинской культуры

Asiyanın xalkolit mədəniyyətləri yaşayış yerlərində ölülərin sağ və ya sol yanı üstdə dəfn olunduğu çoxsaylı qəbirlər aşkar edilmişdir. Çox təsadüfi hallarda fərqli dəfn qaydasına rast gəlinmişdir. Belə ki, Təpə Qavranın xalkolit dövrü qəbirlərinin birində dəfn arxası üstdə uzadılmış vəziyyətdə, digərində isə arxası üstdə, ayaqları bükülü vəziyyətdə icra edilmişdir.[1] Bundan əlavə, III Yarımtəpənin Ubeyd təbəqəsində aşkar edilmiş altı qəbirdən birində dəfn arxası üstdə, ayaqlar bükülü vəziyyətdə icra edilmişdir.[2] II Poylu qəbirlərindəki dəfn qaydaları Təpə Qavranın və III Yarımtəpənin məhz bu qəbirləri ilə analogiya təşkil edir.

**IV Fəsil "Leylatəpə mədəniyyətinin keramika məmulatı Ön Asiya-Qafqaz son xalkolit ənənələrinin başlıca göstəricisi kimi"** adlanır. Bu fəsildə keramika məmulatının ümumi səciyyəsi və saxsı qabların istehsal texnologiyası, onların ornamentləri, qabların üzərindəki dulusçu işarələri, gildən hazırlanmış əmək alətləri, müxtəlif əşyalar və bütün keramika məmulatının Ön Asiya-Qafqaz kontekstində təhlili məsələləri şərh edilmişdir.

Keramika məmulatı xalkolit və tunc dövrlərinin arxeoloji mədəniyyətlərinin başlıca təyinedici materialıdır. Bu baxımdan Leylatəpə mədəniyyəti də istisnalıq təşkil etmir. Bu mədəniyyətin dulus çarxında hazırlanmış özünəməxsus saxsı qabları Cənubi Qafqazda özündən əvvəlki və sonrakı arxeoloji mədəniyyətlərin dulusçuluq məmulatından köklü surətdə fərqlənib onlarla heç bir genetik bağlılığa malik deyildir. Leylatəpə mədəniyyətinin keramika istehsalı ənənəsi Şərqi Anadolu – Şimali Mesopotamiyanın son xalkoliti mühitində formalaşıb və Cənubi Qafqazda artıq təşəkkül tapmış vəziyyətdə yayılmışdır.

Leylatəpə mədəniyyətinin başlıca səciyyəvi xüsusiyyətlərini əks etdirən arxeoloji materiallar məhz keramika məmulatıdır. Kütləvi tapıntılar olan keramika məmulatı ilk olaraq Leylatəpə yaşayış yerinin materialları əsasında İ.Nərimanov tərəfindən təhlil edilmişdir. O, yaşayış yerinin saxsı qablarını 3 qrupa bölmüşdür: birinci qrup – bitki qatışıqlı keramika; ikinci qrup – təmiz tərkibli keramika; üçüncü qrup – qum və xırda daş qatışıqlı keramika. Şərti olaraq ilk iki qrup "keyfiyyətli keramika", üçüncü qrup isə "kobud keramika" kateqoriyalarına aid edilmişdir.[3]

---

//Сборник кратких содержаний докладов международной конференции «Археология, этнология, фольклористика Кавказа». Тбилиси, 2010, с. 208.

[1] Tobler A.İ. Excavations at Tepe Gawra. Vol. II. Philadelphia, 1950.

[2] Мерперт Н.Я., Мунчаев Р.М. Поселение убейдской культуры Ярым-тепе III в Северной Месопотамии //«Советская археология» №4, 1982, с. 143.

[3] Алиев Н., Нариманов И. Культура Северного Азербайджана в эпоху позднего

Bu bölgü bütün Leylatəpə mədəniyyətinə aid abidələrə aid edilə bilər. Bütün keramika məmulatı içərisində birinci qrupa aid qablar böyük əksəriyyət təşkil edir. Belə qablar yüksək keyfiyyətlə bişirilmiş və əsasən qırmızı rənglidirlər. Bəzi qabların səthi bütövlükdə yaşımtıl rəngli anqobla oxra ilə örtülmüşdür. Eyni zamanda solğun yaşıl, sarı, ağ və qırmızı anqoblu qablar da aşkar edilmişdir. Qabların səthi yaxşı hamarlansa da cilasızdır. Onların yuxarı hissələrində dulus çarxının izləri saxlanmışdır.[1]

Dulus çarxı ilk dəfə Ön Asiyada – Mesopotamiya və Şərqi Anadoluda e.ə. V min. sonu-IV min. əvvəlində tətbiq edilmişdir. Leylatəpə mədəniyyəti də öz növbəsində həmin regionun mədəniyyətləri ilə bağlı olduğundan onun daşıyıcıları keramika istehsalındakı bu yeni texnologiyanı Cənubi Qafqazda yaymışlar. Şübhəsiz, burada dulus çarxı dedikdə bu alətin mükəmməl, təkmilləşmiş forması deyil, şərti olaraq onun ibtidai, müxtəlif fırlanan dəzgahlardan ibarət növləri nəzərdə tutulur. Qeyd edilən dövrdə Ön Asiyada şərti olaraq "dulus çarxı" adlandırılan dəzgahın müxtəlif növlərindən istifadə edilmişdir. Dulus çarxının gil diskdən ibarət ən qədim nümunəsi Urdan aşkar edilmişdir. Bundan əlavə müxtəlif dövrlərdə "fırlanan altlıqlar", "fırlanan lövhələr" (və ya "masalar") və s. tipli dəzgahlardan da istifadə edilmişdir. Sonuncular nisbətən daha sadə olub, tədricən təkmilləşdirilərək dulus çarxına çevrilmişdir.[2]

Leylatəpə yaşayış yerində aparılan qazıntılar zamanı ortasında deşik olan yastı diskşəkilli, bir tərəfi qabarıq daş alətlər aşkar edilmişdir. Qazıntı müəllifləri bu tapıntıları təkər adlandırmışlar.[3] İlk dəfə Böyük Kəsikdə aşkar edilmiş belə əşyanın dulus çarxının detalı olması barədə fikir irəli sürmüşdük.[4] Son illər Qalayerində aparılan qazıntılar nəticəsində çoxsaylı belə nümunələr aşkar edilmişdir.[5] Eyni zamanda, Qalayerində üzərində dulus dəzgahının mərkəzi oxunun fırlandığı məsaməli yastı daş aşkar edilmişdir. Daşın mərkəzindəki oyuğun içində fırlanma izləri saxlanmışdır. Bununla belə

---

энеолита. с. 36-37.

[1] Алиев Н., Нариманов И. Культура Северного Азербайджана в эпоху позднего энеолита. с. 36-37

[2] Бобринский А.А., Мунчаев Р.М. Из древнейшей истории гончарного круга на Северном Кавказе // КСИА. 108. 1966, с. 14-22; Бобринский А.А. Гончарный круг и его происхождение. Екатеринбург: Препринт, 1993.

[3] Алиев Н., Нариманов И. Göstərilən əsəri. c. 69.

[4] Müseyibli N.Ə. Eneolit dövrü I Böyük Kəsik yaşayış məskənində arxeoloji qazıntıların nəticələri, s. 17.

[5] Müseyibli N.Ə. Qəbələ rayonundakı Qalayeri xalkolit dövrü yaşayış məskəni Ön Asiya – Qafqaz miqrasiyaları kontekstində.

Leylatəpə mədəniyyəti abidələrində tətbiq edilmiş dulus dəzgahının ümumi strukturu barədə ətraflı fikir yürütmək hələlik mümkün deyil.

S.N.Korenevskiy Maykop mədəniyyətinin yuvarlaq qablarının boğaz hissəsinin dulus çarxında ayrı hazırlandığını, sonra qabın gövdəsinə birləşdirildiyini yazmışdır.[1] Leylatəpə mədəniyyətinin də yuvarlaq qablarında dulus çarxının izləri, artıq qeyd edildiyi kimi, qabların, xüsusilə də küp və küpələrin yuxarı hissəsində saxlanmışdır. Görünür aşağı hissələr və ümumiyyətlə qablar əldə formalaşdırılıb, sonra isə fırlanan dəzgahda qabın yuxarı hissəsinin son tamamlama işləri aparılmışdır.[2]

Gilin hazırlanmasında həvəng dəstələrindən, dən daşı tipli alətlərdən istifadə edilməsi barədə Q.N.Poplevkonun fikirləri ilə razılaşmaq olar.[3] Bunu sübut edən faktlar daha çox Qalayeri yaşayış məskənində aşkar edilmişdir. Şərti olaraq dən daşı adlandırılan bu alətlərin hamısının taxılın üyüdülməsində istifadə edilməsini düşünmək düzgün deyil. Onların əksəriyyətinin ölçülərinin kiçik, işlək səthlərinin tamamilə düz və iri məsaməli olması taxılın həmin daşların üzərində əzilib üyüdülməsi imkanlarını istisna edir. Bu daş alətlərdən gilin hazırlanması, yoğrulması üçün istifadə edilməsi fikirləri həqiqətə daha uyğundur. Onların bəzilərinin məsaməli hissələrində daşlaşmış gilin saxlanması da buna dəlalət edir.

“Kobud keramika” kateqoriyasına aid saxsı qablar əldə formalaşdırılmış və zəif bişirilmişdir. Leylatəpədən aşkar edilmiş bu kateqoriyaya aid bir neçə qab fraqmentinin daxili səthində çox incə toxunmuş parça izləri saxlanmışdır ki, bu da öz növbəsində belə qabların hazırlanmasında toxunma parçadan istifadə edildiyini göstərir.[4]

Leylatəpə mədəniyyəti abidələrinin ən kütləvi tapıntıları olan saxsı qabların tipoloji bölgüsü aparılmış, onların bir tərəfdən Ön Asiya, digər tərəfdən isə Maykop mədəniyyətinin keramikası ilə müqayisəli təhlilləri verilmişdir. “Keyfiyyətli keramika” kateqoriyasına aid, statistik baxımdan daha çox aşkar edilən boşqab tipli qablardır. Say etibarilə ikinci yeri küp/küpə tipli qablar tutur. Hər iki tipə aid qablar ölçülərinə və ağız kənarlarının tərtibatına görə seçilirlər. Bu baxımdan ağız kənarının daxili səthinin kanalvari batıqlarla dövrələnməsi nəticəsində dalğavari hazırlanmış

---

[1] Кореневский С.Н. Древнейшее оседлое население на среднем Тереке, с. 19.

[2] Алиев Н., Нариманов И. Культура Северного Азербайджана в эпоху позднего энеолита. с.38-39.

[3] Поплевко Г.Н. Трасологическое исследование материалов поселения майкопской культуры Чекон / Материалы Шестой международной Кубанской археологической конференции. Краснодар, 2013, с. 344-349.

[4] Алиев Н., Нариманов И. Göstərilən əsəri. с. 44.

bəzi küp/küpələri xüsusilə qeyd etmək lazımdır. Belə qabların paralelləri Şərqi Anadolu xalkoliti abidələrindən məlumdur. Kuzə və kasa tipli qablar bəzi istisnalarla, təmiz tərkibli gildən dulus çarxında hazırlanıblar. Əksər hallarda onların səthi cilalıdır. Müəyyən edilmişdir ki, bu tip qablar daha çox Qalayeri yaşayış məskənindən aşkar edilmişdir. Ümumiyyətlə, Qalayeri yaşayış məskəni, keramika məmulatının tipoloji zənginliyi baxımından digər Leylatəpə mədəniyyəti abidələrindən fərqlənir.

Qeyd edilənlərdən əlavə, abidələrdən, vaza, ikiboğazlı küpə və s. tipli qablar, qab altlıqları, qapaqlar aşkar edilmişdir.

Leylatəpə mədəniyyətinin saxsı qablarının tipoloji xüsusiyyətləri Ön Asiyanın son xalkolit keramikası ilə əsasən eyniyyət təşkil edir. Bunu daha çox kütləvi istehsal edilən səciyyəvi küp/küpə tipli qabların müqayisələri ilə müşahidə etmək mümkündür. Leylatəpə mədəniyyətinin bu tip qablarının ən yaxın analoqları Tell Hamoukar, Oylum Höyük, Amuk F, Arslantəpə VII abidələrindən məlumdur.[1]

Leylatəpə mədəniyyətinin keramikası üçün kütləvi ornament elementləri səciyyəvi deyildir. Bununla əlaqədar yalnız bəzi faktları qeyd etmək olar. Təsadüfi hallarda relyef ornamentlərə rast gəlinir. Bunlar 3-cü qrupa aid tava tipli qabların divarına xaricdən əlavə edilmiş burma relyef-yapmalardır. Bu üsulla naxışlanmış qablar daha çox Qalayerində aşkar edilmişdir. Bundan əlavə, bəzən qabların çiynində şişvari yapmalara da təsadüf edilir. Buna misal olaraq Qalayerində 4 №-li dəfn qabının çiyin hissəsindəki şişvari yapmanı göstərmək olar.

Qabların naxışlanmasının digər üsulu 3-cü qrupa aid qabların ağız kənarının basma, çərtmə üsullarla naxışlanmasıdır. Belə qablar Leylatəpə,[2] Böyük Kəsik[3] yaşayış yerlərindən məlumdur. Lakin belə qablar kütləvi şəkildə Qalayeri yaşayış məskənində aşkar edilmişdir.[4]

Boya ilə naxışlanmış saxsı qab fraqmentlərinə Leylatəpə, I Böyük Kəsik,

---

[1] Tobler A.İ. Excavations at Tepe Gawra; Braidwood R.J., Braidwood L.S. Excavations in the Plan of Antioch. Oriental Institute Publications L.X. University of Chicago Press. Chicago, 1960; Trufelli F. Ceramic correlations and cultural relations in IV$^{th}$ millennium Eastern Anatolia and Siro-Mesopotamia. SMEA 39/1, 1997; Helwing B. The Oylum Höyük western terrace Post-Ubaid assemblage and its plase within the late Chalcolithic of Western Asia.

[2] Алиев Н., Нариманов И. Культура Северного Азербайджана в эпоху позднего энеолита.

[3] Müseyibli N.Ə. Böyük Kəsik eneolit dövrü yaşayış məskəni.

[4] Müseyibli N.Ə. Qəbələ rayonundakı Qalayeri xalkolit dövrü yaşayış məskəni Ön Asiya – Qafqaz miqrasiyaları kontekstində.

Qalayeri abidələrində rast gəlinmişdir. Böyük Kəsikdə bütöv səthi tünd qırmızı çalarda boya ilə örtülmüş təmiz tərkibli gildən hazırlanmış kuzə və kasa tipli qablara aid iki fraqment aşkar edilmişdir. Bundan əlavə, qara və qonur rəngli boyalarla naxışlanmış gil qab qalıqlarına da rast gəlinmişdir. Bu üsulla həm "kobud keramika" həm də bitki qatışıqlı "keyfiyyətli keramika" nümunələri naxışlanmışdır.

Şərqi Anadolu xalkoliti (Arslantəpə VII, Amuk F), Leylatəpə və erkən Maykop keramikasının əsas, fərqləndirici xüsusiyyətlərindən biri qabların üzərində bişirilmədən əvvəl müxtəlif işarələrin vurulmasıdır.[1] Məhz bu "dulusçu işarələri" qeyd edilən mədəniyyətlərin vizit kartlarından biridir və yalnız e.ə. IV min. birinci yarısına aid həmin mədəniyyətlərin abidələrindən məlumdur. Regionun digər xalkolit mədəniyyətləri keramikası üçün belə işarələr səciyyəvi deyildir.

Leylatəpə mədəniyyəti keramikasındakı işarələr Anadolu xalkoliti və Maykop mədəniyyətinin saxsı məmulatı üzərindəki işarələrlə eyniyyət təşkil edir.

Leylatəpə mədəniyyətinə aid Leylatəpə,[2] I Böyük Kəsik,[3] II Poylu,[4] Texut,[5] III Böyük Kəsik, Qalayeri yaşayış məskənlərindən işarəli keramikalar aşkar edilmişdir.[6] İşarələrə Leylatəpə mədəniyyətinin əsasən "keyfiyyətli keramika"sı üzərində rast gəlinir. İşarələr bitki qatışıqlı gildən hazırlanmış küpə tipli qabların çiyin hissəsinə, boşqabların divarına, təmiz gildən daha yüksək keyfiyyətlə hazırlanmış kuzə tipli qabların isə oturacağa yaxın hissəsinə vurulmuşdur. Bunlar göz və ya buğda şəkilli, düz, paralel, çarpaz, qövsvari xətlərdən ibarət işarələrdir. Bu komponentlərə ayrı-ayrılıqda

---

[1] Trufelli F. Standardiation, mass production and potteris marks in the late chalcolithic poteri of Arslantepe (Malatya). Origini. Roma. Vol. XVIII. 1994; Braidwood R.J., Braidwood L.S. Excavations in the Plan of Antioch; Алиев Н., Нариманов И. Культура Северного Азербайджана в эпоху позднего энеолита; Müseyibli N.Ə. Böyük Kəsik eneolit dövrü yaşayış məskəni; Кореневский С.Н. К вопросу о технологии и знаках майкопской керамики на Тереке // Материалы по изучению историко-культурного наследия Северного Кавказа. Выпуск VIII. Крупновские чтения. 1971-2006. XVII Крупновские чтения. Майкоп: 1992. М.: «Памятники исторической мысли» 2008; Кореневский С.Н. Знаковая керамика Кавказа эпохи энеолита и ранней бронзы /Древности Северного Кавказа. М: 1999, с. 7-23.

[2] Алиев Н., Нариманов И. Göstərilən əsəri.

[3] Müseyibli N.Ə. Göstərilən əsəri.

[4] Müseyibli N. İkinci Poylu yaşayış yerinin keramikası // «Azərbaycan arxeologiyası», 2008, № 1-2. s. 25-39.

[5] Торосян Р.М. Раннеземледельческое поселение Техута (IV тыс. до н.э.) //Археологические раскопки в Армении, № 14, Ереван: 1976.

[6] Müseyibli N.Ə. Leylatəpə mədəniyyəti keramikasındakı işarələr // Azərbaycan arxeologiyası və etnoqrafiyası. 2012, №1.

təsadüfi hallarda rast gəlinir. Çox zaman işarələr onların birgə çəkilməyindən ibarət olmuşdur.

Leylatəpə mədəniyyətinin keramika məmulatının müəyyən qrupunu gildən hazırlanmış əmək alətləri və müxtəlif əşyalar təşkil edir. Bunlar qaşovlar, iy başlıqları, oraqlar, antrpomorf və zoomorf fiqurlar, möhürlər, təkər modelləri, "mismarlar" və s. tapıntılardır. Bu materialların təhlili onların hazırlanma və istifadə ənənəsinin Ön Asiya ilə bağlı olduğunu göstərir.

Dissertasiyanın **V fəsli "Leylatəpə mədəniyyəti abidələrinin daş və sümük məmulatı"**na həsr olunmuşdur. Fəsildə ilk növbədə zəngin daş məmulatı təhlil edilmişdir. Abidələrin bölgələr üzrə coğrafi yerləşməsindən, onların Ön Asiyanın ayrı- ayrı mərkəzləri ilə bağlılığından asılı olaraq daş məmulatının xammal mənbəyi baxımından müəyyən fərqlər müşahidə edilir. Lakin ümumilikdə daş alətlərin tipoloji-funksional xüsusiyyətləri eynidir. Bununla yanaşı, qeyd etmək lazımdır ki, daş alətlərin zənginliyi baxımından Qalayeri yaşayış məskəni xüsusilə seçilir.

Dən daşları, sürtgəclər, həvəng dəstələri demək olar ki, geniş qazılmış bütün yaşayış yerlərində aşkar edilmişdir. Qalayerində aşkar olunmuş bir sıra dən daşlarının işlək səthində dairəvi oyuqlar açılmışdır.[1] Belə dən daşlarına Maykop mədəniyyətinə aid Natuxayevski yaşayış yerində rast gəlinmişdir.[2]

Kəsici alətlər çaxmaqdaşından və obsidiandan, o cümlədən gümüşü obsidiandan, az hallarda felzitdən (Qalayeri) hazırlanıb, oraq dişləri, qaşovlar, sıyırğallar, bıçaqvari lövhələr, mişarlar, çoxfunksiyalı alətlər və s. tipli alətlərdən ibarətdir. Eyni zamanda yaşayış yerlərində çoxsaylı nukleusların (nüvələrin) və istehsal tullantılarının aşkar edilməsi daş alətlərin bilavasitə bu məskənlərdə hazırlandığını sübut edir. Maraqlı cəhətlərdən biri arxaik – erkən neolit səciyyəli yastı nüvələrin, iskənə, yonqar tipli alətlərin, mikrolitlərin aşkar edilməsidir. Bu, Leylatəpə mədəniyyətinin səciyyəvi xüsusiyyətlərindən biridir.

Ümumilikdə Leylatəpə mədəniyyəti abidələrindən aşkar edilmiş sümük məmulatı əvvəlki, neolit dövrü ilə müqayisə edilməyəcək dərəcədə azsaylıdır. Bunlar biz, iynə, iy başlığı, cilalayıcı, leylatəpə tipli sancaq və s. tipli alətlərdir. Bu məsələdə Böyük Kəsik yaşayış məskənini xüsusi qeyd

---

[1] Müseyibli N. Leylatəpə mədəniyyətinə aid Qalayeri yaşayış məskəninin daşdan əmək alətləri // Tarix və onun problemləri. 2013, №3, s. 243-250.

[2] Шишлов А.В., Колпакова А.В. Поселение Майкопской культуры у станицы Натухаевской в приморской части северо-западного Кавказа //Доклад на второй международный конгресс по археологии Евразии, проводимый в 2010 г. Тире (Турция).

etmək lazımdır. Bu abidədə digərlərindən fərli olaraq zəngin sümük məmulatı aşkar edilmişdir. Qalayerində aşkar edilmiş bir ədəd boruşəkilli alətin analoqu Təpə Qavradan məlumdur və onun musiqi aləti olması güman edilir.[1]

**VI fəsil "Leylatəpə mədəniyyətinin metal istehsalı Ön Asiya-Qafqaz metallurgiyası konteksində"** adlanır. Burada Qafqazın və Ön Asiyanın erkən metalişləməsinin ümumi səciyyəsi, Leylatəpə mədəniyyəti abidələrindən aşkar edilmiş metalişləmə alətləri və metal əşyalar təhlil edilmiş, metal məmulatının Ön Asiya-Qafqaz konteksində interpretasiyası verilmişdir.

Azərbaycanda, o cümlədən bütövlükdə Cənubi Qafqazda metallurgiyanın əsas inkişafı, şübhəsiz, Leylatəpə mədəniyyəti ilə bağlıdır. Bu mədəniyyətə aid abidələrdən metal istehsalı ilə bağlı metaləritmə kürələri, alətlər və çoxsaylı metal nümunələri – xəncərlər, bizlər, bəzək əşyaları və s. aşkar edilmişdir. I Böyük Kəsik və II Poylu yaşayış yerlərindən butələr aşkar edilmişdir. Bundan əlavə Böyük Kəsik və Qalayeri yaşayış məskənlərindən gildən hazırlanmış qapalı və açıq tipli qəliblər aşkar edilmişdir. İki hissəli qapalı tipli qəliblər e.ə. IV minilliyin I yarısı üçün nadir tapıntılardan olub balta tipli alətlərin hazırlanması üçün nəzərdə tutulmuşdur.[2]

Böyük Kəsik və Qalayerinin açıq tipli qəliblərinin ən yaxın paralelləri Kür-Araz mədəniyyətində[3] və e.ə. IV min. ikinci yarısına aid Arisman (İran) abidəsindən məlumdur.[4]

Bütün bu tapıntılar Leylatəpə mədəniyyətində yerli metal istehsalının əsaslı surətdə təşəkkül tapdığını sübut edir.

Leylatəpə mədəniyyəti ilə eyni mənşəli olan (erkən) Maykop mədəniyyətinə aid zəngin metal məmulatı aşkar edilmişdir. Öz dövrünə görə Maykop metalı Yaxın Şərqin hər hansı kompleksindən daha yüksək səviyyəlidir. Lakin bununla yanaşı, Maykop mədəniyyəti metalının yerli istehsalın məhsulu olmaması barədə əsaslandırılmış fikirlər irəli sürülmüşdür. Belə ki, Y.N.Çernıx və L.B.Orlovskaya haqlı olaraq qeyd edirlər ki, Maykop birliyinin nə yaşayış yerlərində, nə də qəbir abidələrində bu mədəniyyətin

---

[1] Tobler A.İ. Excavations at Tepe Gawra; Müseyibli N.Ə. Leylatəpə mədəniyyəti abidələrinin sümük məmulatı // Azərbaycan arxeologiyası, 2012, №1, s. 28-38.

[2] Müseyibli N. Leylatəpə mədəniyyətinin xronologiyası və dövrləşdirilməsi // Azərbaycan MEA-nın Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, 2014, №1, s. 91-109.

[3] İsmayılov Q. Quruçay və Köndələnçay vadisində qədim mədəniyyət izləri. Bakı: "Elm", 1981; Мусаев Д. Серкертепе – поселение эпохи ранней бронзы. Баку: "Nafta-Press" 2006. s. 52.

[4] Helwing B. The small finds from Arisman // Early Mining and Metallurgy on the Western Central Iranian Plateau (Ed. by A.Vatandoust, H.Parzinger and B. Helwing). 2011. p. 267.

daşıyıcılarının nə dağ-mədən işləri, nə metallurgiya, nə də heç olmasa metalişləmə ilə məşğul olmalarını sübut edən heç bir tapıntıya rast gəlinməmişdir. Paradoksal haldır ki, bununla yanaşı kurqanlardan müxtəlif xarakterli, zəngin, parlaq metal kolleksiyaları aşkar edilmişdir.[1] N.V.Rındina və İ.Q.Raviç isə qeyd edirlər ki, Ön Qafqazda Maykopa qədərki eneolit mərhələsində tək-tək bəzək əşyaları istisna olmaqla metal demək olar ki, məlum deyil. Maykop mədəniyyəti ilə bu ərazilərdə birdən-birə metal məmulatlarının yayılması kütləvi xarakter alır. Bu məmulatlar yüksək hazırlanma texnologiyası ilə səciyyələnir. İstehsal texnologiyasında keçidin, təkamülün olmaması və birdən-birə mürəkkəb texnologiyanın müşahidə edilməsi bu metal məmulatlarının və onların hazırlanma texnologiyasının cənub mədəniyyət mərkəzlərindən gətirildiyini göstərir.[2]

Leylatəpə mədəniyyətinin metalının araşdırılması zamanı onun mənşə etibarilə bilavasitə bağlı olduğu Şərqi Anadolu abidələrinə, xüsusilə də Amuk F mərhələsi və Arslantəpə yaşayış yerlərinə müraciət edilməsi mühüm əhəmiyyət kəsb edir. Cənubi-Şərqi Türkiyə ərazisindəki Amuk F mərhələsi (e.ə. IV min. birinci yarısı) yaşayış yeri olan Tell Cudeydadan mis əsaslı metal əşyalar – xəncər, iskənə, bıçaq, dördbucaq kəsikli sancaq və bizlər aşkar edilmişdir. Bu tapıntıların spektral analizi onların nikel və mərgümüş qatışıqlı misdən hazırlandıqlarını göstərmişdir.[3]

Arslantəpənin VII təbəqəsindən məhdud sayda metal tapıntılar əldə edilmişdir. Onların hamısı mis-mərgümüş-nikel tərkiblidir. Belə tərkibli metal sonrakı mərhələlərdə də uzun müddət istifadə edilmişdir.[4]

Qafqazın, o cümlədən Leylatəpə mədəniyyətinin və Ön Asiyanın xalkolit dövrü mis əsaslı metalının tərkibində mərgümüşün süni və ya təbii qatışıq olması barədə mütəxəssislərin fikirləri müxtəlifdir. Bununla yanaşı qeyd etmək lazımdır ki, Leylatəpə mədəniyyəti metalının tərkibindəki mərgümüşün süni surətdə qatılmasını sübut edəcək faktlar mövcud deyil.

---

[1] Черных Е.Н., Орловская Л.Б. Феномен майкопской общности и ее радиоуглеродная хронология // Археология Кавказа и Ближнего Востока // Сборник к 80-летию члена-корреспондента РАН, профессора Р.М.Мунчаева. М: 2008. с. 260.

[2] Рындина Н.В., Равич И.Г. Литейные и кузнечные приемы в металлопроизводстве майкопских племен Северного Кавказа // Цивилизационные центры и первобытная периферия в эпоху раннего металла: модели взаимодействия. Тезисы докладов круглого стола, посвященного памяти Н.Я.Мерперта. М: 2013. с. 36

[3] Braidwood R.J., Braidwood L.S. Excavations in the Plan of Antioch; p. 244-246.

[4] Di Nocera G.M. Metals and metallurgy. Their place in the Arslantepe society between the end of the 4th and beginning of the 3rd millennium BC, in Economic Centralisation in Formative States. The archaeological Reconstuction of the Economic System in 4th Millenium Arslantepe. M.Frangpane (ed.) // studi di Preistoria Orientale 3, Roma: 2010. p. 256.

Onların tərkibindəki mərgümüşün miqdarının stabil deyil, müxtəlif olması da belə bir nəticəyə gəlməyə imkan verir.

Qədim metallurgiya ilə bağlı digər bir məsələyə də qısa nəzər salmaq yerinə düşərdi. Bu, metalın xüsusiyyətlərindən asılı olaraq tarixi dövrlərin bölgüsündəki terminologiyaya aiddir. Yuxarıda qeyd edildiyi kimi keçmiş sovet və Rusiya alimləri misin tərkibində mərgümüşün və nikelin olmasını əsas götürərək e.ə. IV minilliyi erkən tunc dövrü hesab edirlər. Lakin belə qatışıqlar misin tərkibində e.ə. V minilliyin ikinci yarısında da qeydə alınmışdır. İ.R.Səlimxanov isə metalın tərkibini əsas götürərək Azərbaycanda ümumiyyətlə eneolit dövrünün olduğunu inkar etmişdir.[1] I Kültəpə metalının tərkibində 6%-ə qədər mərgümüşün olmasını əsas götürən A.A.İyessen "Kür-Araz eneoliti" abidələrini erkən tunc dövrünə aid etməyi düzgün hesab etmişdir.[2]

Qərb alimlərinin fikrincə mərgümüş və nikel qatışıqlı misin geniş istifadə edildiyi e.ə. V minilliyin ikinci yarısı – IV minilliyin üçüncü rübü son xalkolit dövrüdür. Bütün mülahizələrə baxmayaraq həmin dövrdə misin tərkibinə mərgümüşün və nikelin süni qatılması tam təsdiqini tapmamışdır və fikrimizcə qərb tədqiqatçıları bu məsələdə daha düzgün mövqedədirlər. Hər hansı tarixi dövrü yalnız metalın tərkibi ilə deyil, bütün arxeoloji tapıntıların, həmin dövrün sosial-iqtisadi həyatının, istehsal mədəniyyətinin kompleks tədqiqi ilə səciyyələndirmək olar. Əks təqdirdə misin istifadə edildiyi e.ə. IX – VIII minilliklər (Çayönü, Aşıklı Höyük və s.) erkən neolit deyil, xalkolit dövrü adlandırılmalıdır. Bildiyimiz kimi, bu belə deyil.

Qeyd edilənlər əsasında belə bir nəticəyə gəlmək olar ki, Leylatəpə mədəniyyəti bütövlükdə, Maykop mədəniyyəti (erkən mərhələ) və erkən dövrü bu mədəniyyətlərlə sinxron olan Kür-Araz mədəniyyətinin e.ə. IV minilliyin sonlarına qədərki mərhələsi xalkolit dövrünə aid edilməlidir.

Dissertasiyanın sonuncu, **VII fəsli "Ön Asiya və Qafqazın xalkolit kompleksləri sırasında Leylatəpə mədəniyyətinin tarixi-xronoloji yeri"** adlanır. Bu fəsildə demək olar ki, dissertasiyada aparılmış bütün təhlillərə yekun vurularaq umumi şərhlər verilmişdir.

Birinci-üçüncü yarımfəsillərdə Leylatəpə mədəniyyətinin xronologiyası və dövrləşdirilməsi problemləri həll edilmişdir. Burada həm ənənəvi üsulla, yəni arxeoloji materialların, xüsusilə də keramika məmulatının müqayisəli təhlili ilə, həm də radiokarbon analizlərin nəticələri əsasında Leylatəpə

---

[1] Селимханов И.Р. Древнейший металл Азербайджана. Баку: Элм 1986.
[2] Иессен А.А. Кавказ и Древний Восток в IV и III тысячелетиях до нашей эры // КСИА, вып. 93, 1963, с. 5.

mədəniyyətinin meydana çıxma tarixi, onun dövrləşdirilməsi məsələləri şərh edilmişdir. Bütün bu üsullarla müəyyən edilmişdir ki, Leylatəpə mədəniyyəti e.ə. IV minnilliyin başlanğıcında meydana çıxmışdır və e.ə. IV minnilliyin ortalarına qədər davam etmişdir.

Dördüncü yarımfəsildə Leylatəpə mədəniyyətinin Ön Asiya köklərindən bəhs edilir.

Leylatəpə mədəniyyətinin mənşəyi əvvəllər elmdə uzun müddət diskussiya obyekti olaraq qalmışdır. Bu mədəniyyəti kəşf etmiş İ.Nərimanov onun köklərinin Şimali Ubeydlə, Ubeyd-Uruk abidələri ilə bağlı olduğunu yazmışdır.[1] Tədqiqatçıların bir qrupu Leylatəpə mədəniyyətinin mənşəyini Mesopotamiyanın Uruk mədəniyyəti, xüsusilə də onun son mərhələsi ilə bağlayırlar və ya hər iki mədəniyyətin sinxronluğundan bəhs edirlər.[2]

A.D.Rezepkin, mənşəyi ilə hələ Hələf dövrünə bağlı olan cilalı, qırmızı, boz, açıq qəhvəyi, narıncı rəngli, bitki qatışıqlı və ya təmiz gildən hazırlanmış yuvarlaq altlıqlı, Şərqi Anadolunun son xalkolit dövrünə aid keramikasının Şimali Qafqazda yayılması ilə "erkən Maykop" abidələrinin meydana çıxdığını yazır. Eyni zamanda müəllif bu keramikanın Şimali Qafqaza Cənubi Qafqaz abidələri vasitəsi ilə yayıldığını qeyd etmişdir. O, qabların tipologiyasına əsaslanaraq Maykop mədəniyyətinin sonrakı mərhələsinin, eyni zamanda Novosvobodnı mədəniyyətinin və ya mərhələsinin formalaşmasını bilavasitə Uruk mədəniyyətinin təsiri ilə bağlamışdır.[3]

S.N.Korenevskiy də Şimali Qafqaza ilk miqrasiya dalğasının Leylatəpə – Şərqi Anadolu tipli yuvarlaq altlıqlı işarəli keramika daşıyıcıları tərəfindən baş verdiyini yazır. Maykop mədəniyyətinin sonrakı, xüsusilə də

---

[1] Нариманов И.Г. Обейдские племена Месопотамии в Азербайджане //Всесоюзная археологическая конференция «Достижения советской археологии в XI пятилетке». Тезисы докладов. Баку: 1985, с. 271-272; Нариманов И.Г. Культура древнейшего земледельческо-скотоводческого населения Азербайджана. Баку 1987. с. 130.

[2] Мунчаев Р.М., Амиров Ш.Н. Взаимосвязи Кавказа и Месопотамии в VI-IV тыс. до н.э./ Материалы международной научной конференции «Кавказ: археология и этнология». Баку, 2009 с. 41-52; Lyonnet B., Akhundov T., Almamedov K., Bouquet L., Courcier A., Jellilov B., Huseynov F., Lonte S., Makharadze Z. and Reynard S. Late Chalkolithic Kurgans in Transcaucasia. The cemetery of Soyuq Bulaq (Azerbaijan) // Archöologishe Mitteilungen Aus İran und Turan. Bond 40, Berlin: 2008, p. 27-44; Мунчаев Р.М., Амиров Ш. Н., Магомедов Р. Г. Восточный Кавказ и проблема кавказско-месопотамских связей в IV-III тыс. до н. э. // Исследования первобытной археологии Евразии. Сборник статей к 60-летию члена-корреспондента РАН, профессора Хизри Амирхановича Амирханова. Махачкала: «Наука ДНЦ», 2010.

[3] Резепкин А.Д. Некоторые аспекты формирования эпохи ранней бронзы на Северном Кавказе //Материалы и исследования по археологии Кубани. вып.4. Краснодар 2004.

metallurgiyanın inkişaf etdiyi mərhələlərini bu müəllif də Uruk mərhələsi ilə bağlayır.[1] Ümumiyyətlə, S.N.Korenevskiy Leylatəpə mədəniyyətinin Ubeyd-Uruk səciyyəli olduğunu yazır.[2]

Göründüyü kimi, Uruk mədəniyyətinin Qafqazda yayılması haqqındakı sovet arxeologiya elmində irəli sürülmüş fikirlər müasir dövrdə yalnız postsovet məkanı arxeoloqları tərəfindən təkrar edilməkdədir. Bu yanlış təkrarlar edilən zaman Şimali və Cənubi Mesopotamiyada Uruk mədəniyyətinin xüsusiyyətləri, bu mədəniyyətin şimal istiqamətində yayılma tarixi və istiqamətləri, bu yayılmaya qədər Şimali Mesopotamiyada və Şərqi Anadoluda yerli xalkolit mədəniyyətlərinin vəziyyəti, başlıca arxeoloji materiallar olan keramika məmulatının tipoloji səciyyəsi və s. kimi mühüm məsələlər araşdırılmır. Halbuki, Şimali Mesopotamiyada və Şərqi Anadoluda e.ə. IV minilliyin birinci yarısında, yəni Amuk F və Arslantəpə VII mərhələsində Uruk mədəniyyətinin heç bir əlamətləri izlənilmir. Eyni zamanda, 20 ildən artıqdır ki, göstərilən regionun e.ə. IV minilliyin birinci yarısına aid abidələri bilavasitə bölgədə çalışan Qərb arxeoloqları tərəfindən həmin abidələrin, onların artefaktlarının köklü tipoloji fərqlərinin nəzərə alaraq Uruk deyil, yerli son xalkolit mədəniyyəti kimi dəyərləndirirlər. Bir sözlə, Uruk mədəniyyətinin guya böyük bir sıçrayışla geniş ərazilərə yayılması barədə G. Alqazenin irəli sürdüyü "Uruk ekspansiyası" artıq ilk mənasında qəbul edilmir.[3] E. ə. IV minilliyin birinci yarısına aid Leylatəpə mədəniyyəti və onunla genetik bağlı olan Maykop mədəniyyəti də Şimali Mesopotamiya və Şərqi Anadolunun Amuk F və Arslantəpə VII mərhələsinin son xalkolit ənənələrinin Qafqazda yayılması nəticəsində meydana çıxmışlar.

---

[1] Кореневский С.Н. Радиокарбонная хронология энеолита, раннего бронзового века Предкавказья в сравнений //Проблемы хронологии и периодизации археологических памятников культур Северного Кавказа. XXVI «Крупновские чтения» по археологии Северного Кавказа. Тезисы докладов. Магас: «Пилигрим», 2010.

[2] Кореневский С.Н. Современные проблемы изучения майкопской культуры //Археология Кавказа и Ближнего Востока. Сборник к 80-летию члена-корреспондента РАН, профессора Р.М.Мунчаева. М.: «Таус», 2008.

[3] Trufelli F. Standardiation, mass production and potteris marks in the late chalcolithic poteri of Arslantepe (Malatya); Trufelli F. Ceramic correlations and cultural relations in IV$^{th}$ millennium Eastern Anatolia and Siro-Mesopotamia; Frangipane M. A 4$^{th}$-millennium temple/palase complex at Arslantepe-Malatya. Nouth-South relations and the formation of early state societies in the Northen regions of Greater Mesopotamia // Paleorient, Annee 1997, Vol. 23, Num. 1, p. 45-73; Frangipane M. Yakindoğuda devletin doğuşu; Marro C. Is there a Post-Ubaid culture? Reflections on the transition from the Ubaid to the Uruk periods along the fertile crescent and beyond // Varia Anatolica XXVII, Paris: 2012, p.13-38.

Şimali Mesopotamiya – Şərqi Anadoluda Uruk mədəniyyətlərinin əlamətləri izlənilmir. Göstərilən regionda Uruk mədəniyyəti özünün inkişafının orta və son mərhələsində, yəni e.ə. IV minilliyin ortalarından tez olmayaraq yayılmağa başlamışdır.[1] Bu dövrdə Cənubi Qafqazda Leylatəpə mədəniyyətinin mövcudluğu artıq sona çatmışdır. Buna görə də Leylatəpə və Uruk mədəniyyətləri arasında hər hansı bağlantıdan söhbət gedə bilməz.

Bundan əlavə, Şimali Mesopotamiyada və Cənubi-Şərqi Anadoluda yerləşən Təpə Qavra, Qray Reş, Leylan Höyük, Hayaz Höyük və Amuk vadisindəki F mərhələsinə aid Tell Cudeydanın sinxron təbəqələrində Uruk mədəniyyətinin izləri hətta bu mədəniyyətin ən intensiv yayıldığı son mərhələsində də müşahidə edilmir.[2] Bütün bunlar Uruk mədəniyyətinin hətta Yuxarı Mesopotamiya və Şərqi Anadoluda belə əvvəllər elmdə təsəvvür edildiyi qədər geniş yayılmadığını sübut edir.

Leylatəpə mədəniyyətinin dəfn adətləri də Uruk mədəniyyətindən köklü surətdə fərqlənir. Bu mədəniyyət üçün səciyyəvi olan kurqan tipli qəbirlər Uruk mədəniyyətində və ümumiyyətlə Mesopotamiyada tətbiq edilməmişdir. Uruk mədəniyyəti daşıyıcıları ölüləri əsasən arxası üstdə uzadılmış vəziyyətdə, Leylatəpə mədəniyyəti daşıyıcıları isə yanı üstdə bükülü vəziyyətdə dəfn edirdilər. Leylatəpə mədəniyyətinin qəbir tipləri (kurqanlar istisna olmaqla) və dəfn adətləri, yuxarıda qeyd edildiyi kimi, Təpə Qavra qəbirləri və dəfn adətləri ilə tam analogiya təşkil edir. Təpə Qavranın isə Uruk təsirinə məruz qalmadığı məlumdur. Beləliklə, Leylatəpə mədəniyyətinin mənşəyi Şərqi Anadolu-Şimali Mesopotamiyanın e. ə. IV minilliyin əvvəllərinə - yəni Uruk mədəniyyətinin bu ərazilərdə yayılmasına qədərki yerli son xalkolit ənənələri ilə bağlıdır.[3]

VII fəslin beşinci yarımfəsli "Leylatəpə-Maykop Mədəni-Tarixi Birliyi" adlanır. Son on ildə aparılan arxeoloji araşdırmalar Maykop mədəniyyətinin Leylatəpə mədəniyyəti ənənələri əsasında yaranması tədqiqatçılar tərəfindən birmənalı şəkildə qəbul edilmişdir. Bu məsələ ilə əlaqədar Maykop mədəniyyətinin və onun mənşə etibarilə bağlı olduğu Yaxın Şərq abidələrinin görkəmli tədqiqatçıları R. M. Munçayev və Ş.N.Amirov son illər nəşr

---

[1] Frangipane M. Centralization Processes in Greater Mesopotamia: Uruk «Expansion» as the Climax of Systemic Interactions among Areas of the Greater Mesopotamian Region. Uruk Mesopotamia and its Neighbors. 2001, p. 307-347; Frangipane M. Yakindoğuda devletin doğuşu; 2002.

[2] Frangipane M. Yakindoğuda devletin doğuşu; s. 248-249.

[3] Müseyibli N.Ə. Leylatəpə arxeoloji mədəniyyəti: Ön Asiya kökləri və Qafqaz eneolitində yeri // «Azərbaycan arxeologiyası və etnoqrafiyası», 2011, №2, s. 5-10; Müseyibli N.Ə. Qəbələ rayonundakı Qalayeri xalkolit dövrü yaşayış məskəni Ön Asiya – Qafqaz miqrasiyaları kontekstində.

etdirdikləri əsərlərdə də Ön Asiya təsirlərinin Şimali Qafqaza məhz Mesopotamiya mənşəli Leylatəpə mədəniyyəti vasitəsilə yayıldığını qeyd etmişlər.[1]

Yuxarıda qeyd edilənlərlə yanaşı Leylatəpə-Maykop əlaqələrini əks etdirən bir sıra abidələrin müqayisəli təhlilinə ehtiyac vardır. Belə ki, Şimali Qafqazdakı bir sıra abidələrin Maykop mədəniyyətinə aid edilməsi məsələsi yenidən nəzərdən keçirilməlidir. Bu mədəniyyətin tədqiqinin bütün mərhələlərində bu və ya digər dərəcədə oxşar abidələri dərin təhlillər aparmadan həmin mədəniyyətə aid etmişlər. Bu məsələdə şübhəsiz, onların aşkar edildiyi coğrafiya – Maykop mədəniyyəti arealı əsas rol oynamışdır. Lakin tədqiqatlar genişləndikcə, tapıntıların sayı artdıqca Şimali Qafqazdakı e.ə. V-IV minilliklərə aid abidələrin mədəni mənsubiyyəti barədə daha düzgün fikirlər irəli sürülmüşdür. Onilliklər ərzində Maykop mədəniyyətinə aid edilən Meşeko və bu tipli abidələrin son tədqiqatlar əsasında əslində Maykopaqədərki, fərqli komplekslərə aid olduğu müəyyən edilmişdir.[2]

Bu məsələ ilə əlaqədar digər müzakirələr Novosvobodnı tipli abidələrlə bağlıdır. Məlum olduğu kimi Maykop mədəniyyətinin tədqiqatçıları Novosvobodnı tipli abidələri də bu mədəniyyətə, daha doğrusu onun ikinci mərhələsinə aid edir və bu məsələdə daha çox "Maykop-Novosvobodnı Birliyi" terminınə üstünlük verirlər.[3]

A.D.Rezepkin bu məsələnin üzərində daha geniş dayanmışdır və bu istiqamətdə daha geniş, əsaslandırılmış təhlillər aparmışdır. O, özünün bir neçə məqaləsində Novosvobodnı tipli abidələri eyni adlı müstəqil bir mədəniyyətdə birləşdirir. Bunun üçün müəllif daha çox Adıgeydə Novosvobodnı kəndi yaxınlığındakı "Kladı" kurqanlarının və bu kurqan çölündə 39 və 40 №li kurqanların altında aşkar edilmiş Novosvobodnı yaşayış yerinin materiallarına əsaslanır. Eyni zamanda A.D.Rezepkin əsil Maykop və Novosvobodnı keramikalarını müqayisəli təhlil edir, birinciyə aid qabların şar gövdəli, yuvarlaq altlıqlı, ikinciyə aid qabların isə yastı

---

[1] Мунчаев Р.М., Амиров Ш.Н. Из основных результатов исследований экспедиции Института археологии РАН в Сирии //Фундаментальные проблемы археологии, антропологии и этнографии. К 70-летию академика А. П. Деревянко. Новосибирск: Издательство АЭТ СО РАН, 2013. с.335.

[2] Кореневский С.Н. Галюгай I – поселение Майкопской культуры. М: «Российский этнограф», 1995, 169 с.; Кореневский С.Н. Современные проблемы изучения майкопской культуры.

[3] Мунчаев Р.М. Майкопская культура; Кореневский С.Н. Галюгай I – поселение Майкопской культуры; Кореневский С.Н. Древнейшие земледельцы и скотоводы Предкавказья. Майкопско-новосвободненская общность. Проблемы внутренней типологии. М: «Наука», 2004, 243 с.; Кореневский С.Н. Современные проблемы изучения майкопской культуры.

oturacaqlı olması məsələsini önə çəkir. Qəbir abidələrinin strukturu və dəfn adətlərinin fərqli xüsusiyyətləri də bu məsələnin təhlilində başlıca amillərdir. Eyni zamanda tədqiqatçı hər iki mədəniyyətin qarşılıqlı əlaqələri nəticəsində hibrid – Maykop-Novosvobodnı yaşayış yerlərinin də mövcudluğunu qeyd edir. A.D.Rezepkin mənşə etibarilə Maykop mədəniyyətinin əsasən Yaxın Şərqlə – Urukla, Novosvobodnı mədəniyyətini isə şimal əraziləri ilə, cənubi-şərqi Avropa mədəniyyətləri ilə bağlayır.[1]

Fikrimizcə Maykop və Novosvobodnı komplekslərinin tam fərqli mənşəli, ayrı-ayrı arxeoloji mədəniyyətlər olması barədə A.D.Rezepkinin fikirləri daha düzgündür. Eyni arealda yerləşmələrinə baxmayaraq bu mədəniyyətlər doğrudan da fərqli materiallarla və fərqli komplekslərlə təmsil olunurlar. Bir mədəniyyətə aid məmulatın digərində aşkar edilməsi isə qarşılıqlı əlaqələrin nəticəsi ola bilərdi.

Digər tərəfdən, A.D.Rezepkin Ön Asiya sivilizasiyalarının Şimali Qafqaza təsirinin bir dəfəlik deyil, bir neçə dəfə baş verdiyini qeyd edir. Bu təsirlərin iki mənbəli olduğunu yazan müəllif bunların Şərqi Anadolu xalkoliti və Uruk olduğunu göstərir. A.D.Rezepkinin fikrincə, e.ə. IV minilliyin ikinci üçyüzilliyində Maykop mədəniyyəti Uruk sivilizasiyasının təsiri ilə formalaşmışdır. O dövrə qədərki mədəni təsirləri isə tədqiqatçı Şərqi Anadolu xalkoliti ilə bağlayır və Maykop kurqanı, Ust-Cequtinski kurqanları və yaşayış yerini, Zamankul kurqanlarının və Bolşeteqinski yaşayış yerinin materiallarında Uruk təsirlərinin müşahidə olunmadığını yazır.[2] Yuxarıda qeyd edildiyi kimi, Maykop mədəniyyəti başlıca olaraq kurqan abidələri əsasında tədqiq edilmişdir. Bu kurqanların mənşəyi barədə elmdə müxtəlif fikirlər mövcuddur. Belə bir fikir var ki, Şimali Qafqazda ilk kurqanlar Maykop mədəniyyəti ilə bağlıdır, əvvəlki dövrlərə aid burada kurqanlar məlum deyildir.[3] Tədqiqatçılar Maykop mədəniyyətinə aid etdikləri ən qədim kurqanları (Brut, Zamankul) e.ə. IV minilliyin ilk əsrlərinə aid olduğunu yazırlar.[4]

---

[1] Резепкин А. Гибридные (майкопско-новосвободненские) поселения на Северо-Западном Кавказе / Сборник материалов международной научной конференции «Раннеземледельческие культуры Кавказа». Баку 2012.

[2] Резепкин А.Д. Металл майкопской культуры //Первая Абхазская международная археологическая конференция. Сухум 2006, с. 314-315.

[3] Моргунова Н.Л. О хронологическом соотношении и культурных связях майкопской и ямной культур //Проблемы хронологии и периодизации археологических памятников культур Северного Кавказа. XXVI «Крупновские чтения» по археологии Северного Кавказа. Тезисы докладов. Магас 2010. с. 254.

[4] Ростунов В.Л. Эпоха энеолита и бронзы на территории Северной Осетии //Археология

Fikrimizcə yanlış olaraq A.D.Rezepkin kurqanlarda dəfn adətinin Maykop mədəniyyətinə cənubi Rusiya çöllərinin eneolit mədəniyyətləri tərəfindən gətirildiyini yazmışdır.[1]

Leylatəpə-Maykop əlaqələri, birincinin sonu-ikincinin əvvəli arasındakı sərhədlər, hər iki mədəniyyətin qovşağı, birindən digərinə keçid kimi məsələlərə dair elmdə yekdil fikir yoxdur. S.N.Korenevskiy Maykop mədəniyyətinin erkən mərhələsinin Leylatəpə mədəniyyəti ilə həmdövr olduğunu yazır. Bununla yanaşı Leylatəpə mədəniyyətində olduğu kimi Maykop mədəniyyəti abidələrində möhrə tikililərin olmadığını, Leylatəpə abidələrində gil konusların, ocaq qurğularının geniş yayılmadığını əsas götürərək bu iki mədəniyyət arasında birbaşa bağlılığın mövcudluğunu problematik, şübhəli hesab edir. Eyni zamanda tədqiqatçı dulus çarxında qabların hazırlanması, işarəli qabların, mərgümüş və mərgümüş-nikel tuncunun sirlərinin Leylatəpə mədəniyyəti daşıyıcıları tərəfindən Şimali Qafqaza gətirilməsi ehtimalının həddən artıq fərziyə olduğunu və bu məsələnin dəqiqləşdirilməyə ehtiyacı olduğunu yazır.[2] Bütün bunlarla yanaşı müəllif alternativ variantlar təklif etməmişdir. Sadalanan bütün faktların Leylatəpə mədəniyyətində mövcudluğu sübuta yetirilmişdir və bunların Maykop arealına Leylatəpə mədəniyyəti daşıyıcıları tərəfindən çatdırılması variantının alternativi yoxdur.

Digər məqaləsində S.N.Korenevskiy Maykop-Novosvobodnı birliyinin erkən mərhələsini (e.ə. 40-37-ci əsrlər) Leylatəpə-Şərqi Anadolu səciyyəli yuvarlaq altlıqlı, işarəli keramika daşıyıcılarının miqrasiyaları ilə əlaqələndirir. Bu dövrdə həmin tayfalar Terek və Kuban vadilərində, Kuma-Manıç çökəkliyində yayılır, kurqan adəti inkişaf edir və iri ölçülü kurqanların tikintisi başlanır, Maykop kurqanı tipli abidələr meydana çıxır.[3]

---

Северной Осетии. Владикавказ 2007. с. 89; Кореневский С.Н. Радиокарбонные даты эпохи позднего энеолита – начала раннего периода бронзового века Кавказа по данным культуры накольчатой жемчужной керамики предкавказья и майкопской культуры /Северный Кавказ в древности и средние века. Сборник статей посвященный 80-летию выдающегося археолога, доктора исторических наук, член.-корр. РАН Р.М.Мунчаева. Махачкала: 2008, с. 87.

[1] Резепкин А.Д. Курган 31 могильника Клады. Проблемы генезиса и хронологии майкопской культуры //Древние культуры Прикубанья. Ленинград. 1991. с. 198.

[2] Кореневский С.Н. Радиокарбонные даты эпохи позднего энеолита – начала раннего периода бронзового века Кавказа по данным культуры накольчатой жемчужной керамики предкавказья и майкопской культуры. с. 79

[3] Кореневский С.Н. Радиокарбонная хронология энеолита, раннего бронзового века Предкавказья в сравнений //Проблемы хронологии и периодизации археологических памятников культур Северного Кавказа. XXVI «Крупновские чтения» по археологии Северного Кавказа. Тезисы докладов. Магас: «Пилигрим», 2010, с. 202.

Ümumiyyətlə, Maykop mədəniyyətinə öz dövrü üçün metalişləmə sənətinin yüksək inkişafı xasdır. M.V.Andreyevanın fikrincə məhz metalişləmənin yüksək səviyyəsi Maykop mədəniyyətini eneolit mədəniyyətləri sırasına aid etməyə imkan vermir.[1] Mis əsaslı Maykop metalı demək olar ki, həmişə mərgümüşlə müşayət olunur. Bu məsələnin şərhi ilə əlaqədar S.N.Korenevskiy metallurgiya nöqteyi-nəzərindən Leylatəpə mədəniyyətini eneolit və ya "yarıeneolit" hesab edir. "Yarıeneolit" terminini tədqiqatçı onunla izah edir ki, mədəniyyətin daşıyıcıları misdən təmiz halda və ya 1%-dən bir qədər artıq mərgümüş qatışığı ilə istifadə etmişlər. Maykop mədəniyyətinin metal məmulatı isə başlıca olaraq mis – mərgümüş əsaslı olduğundan bu mədəniyyət elmi ədəbiyyatda həmişə ilk tunc dövrünə aid edilmişdir.[2]

Mədəniyyətlərin konkret tarixi mərhələyə aid edilməsində əsas, kütləvi materiallar olan keramika mühüm yer tutur. Maykop mədəniyyətinin keramikasının başlıca xüsusiyyəti təmiz və ya qum qatışıqlı gildən hazırlanmış qırmızı, oxra çalarlı, cilalı qabların istehsalıdır. Bundan əlavə, Böyük Maykop kurqanında təmiz tərkibli gildən hazırlanmış bir neçə açıq-oxra, oxra və açıq-qonur rəngli qablar aşkar edilmişdir. Ust Çequtinski kurqanlarının və eyni adlı yaşayış yerinin keramikası isə əsasən sarı-oxra və qırmızı-sarı rənglidirlər.[3] Eyni zamanda Maykop mədəniyyətinin erkən mərhələsinə aid keramikanın müəyyən bir qismi bitki qatışıqlı olsa da bu Leylatəpə mədəniyyətində olduğu kimi kütləvi səciyyə daşımır. Məhz keramika məmulatının bu xüsusiyyəti hər iki mədəniyyət arasındakı fərqləndirici faktlardan biridir.

Leylatəpə mədəniyyətinin keramikası dəfələrlə qeyd edildiyi kimi, bitki qatışıqlı və ya təmiz gildən dulus çarxında hazırlanmış qırmızı, sarımtıl-oxra, çəhrayı rəngli ("keyfiyyətli keramika") və qeyri-üzvi (qum, xırda daş və s.) qatışıqlı gildən əldə formalaşdırılmış əsasən qonur rəngli ("kobud keramika") qablardan ibarətdir. Hər iki kateqoriyanın xüsusiyyətlərini özündə birləşdirən qablar da aşkar edilmişdir. Bütün bu xüsusiyyətləri ilə Leylatəpə mədəniyyətinin keramikası sırf xalkolit səciyyəlidir. Çox təsadüfi hallarda

---

[1] Андреева М.В. К вопросу о южных связях майкопской культуры //СА, 1977, № 1, с. 43.

[2] Кореневский С.Н. Радиокарбонные даты эпохи позднего энеолита – начала раннего периода бронзового века Кавказа по данным культуры накольчатой жемчужной керамики предкавказья и майкопской культуры. с. 84.

[3] Мунчаев Р.М. Кавказ на заре бронзового века. М: «Наука», 1975. с. 326-327; Нечитайло А.А. Верхнее Прикубанье в бронзовом веке. К: «Наукова Думка», 1978. с. 21-34.

təmiz tərkibli gildən hazırlanmış tünd boz-qara rəngli cilalı qab fraqmentlərinə rast gəlinir. Ümumiyyətlə, Leylatəpə mədəniyyətinin təmiz tərkibli gildən hazırlanmış "keyfiyyətli keramikasının" miqdarı 4-5%-dən artıq deyil.

Maykop mədəniyyətinin erkən mərhələsinə aid edilən abidələrin arxaik səciyyəsi tədqiqatçılar tərəfindən qeyd edilmişdir. Bitki qatışıqlı gildən hazırlanmış çoxsaylı saxsı qabların aşkar edildiyi I Qalyuqay yaşayış yerini S.N.Korenevskiy keramika məmulatının təhlili əsasında ilkin olaraq Cənubi Qafqazın eneolit dövrünün sonu-erkən tunc dövrünün əvvəlinə aid edir.[1]

Leylatəpə və Maykop mədəniyyətlərinin keramika məmulatının ümumi və fərqli xüsusiyyətlərinin müəyyənləşdirilməsi üçün Şimali Qafqazın bir sıra abidələrinin materialları diqqəti cəlb edir. Bunlar Maykop, Ust-Cequtinski kurqanları, 3 №-li Brut kurqanı, Qalyuqay, Seryoqin, I Dyurso, Natuxayevski yaşayış yerləri və Mıştulaqtı-Laqat mağarasının III təbəqəsidir.

Natuxayevski yaşayış yerinin Leylatəpə mədəniyyətinin Cənubi Qafqazdakı abidələrinin materialları ilə eyniyyət təşkil edən başlıca tapıntıları çoxsaylı keramika məmulatıdır. Natuxayevskidə saxsı qablardan əlavə, gildən hazırlanmış bir neçə növ spesifik əşya aşkar edilmişdir. Bunlar bir ədəd "qaşıq", təkər modeli, şarşəkilli əşyalar, saxsı qabların fraqmentlərindən hazırlanmış 10-dan artıq qaşovlardır.[2] "Qaşıq" çox ehtimal ki, butə funksiyalı olub metaləritmədə istifadə olunmuşdur. Bu əşyanın birbaşa analoqu I Böyük Kəsikdən məlumdur.[3] Gildən hazırlanmış təkər modelləri I Böyük Kəsikdən[4] və II Poyludan aşkar edilmişdir. Natuxayevski "təkərində" çarx topu daha qabarıq verilmişdir. Mesopotamiya mənşəli (II Yarımtəpə) saxsı qaşovlar Cənubi Qafqazda Leylatəpədən,[5] I Böyük Kəsikdən, II Poyludan, Qalayerindən və Ağılı dərədən aşkar edilmişdir. Şarşəkilli gil əşyaların analoqları isə Hələf

---

[1] Кореневский С.Н. К вопросу о поселениях ранних земледельцев – скотоводов Предкавказья в свете новых данных /Кавказ в системе раннеметалических культур Евразии. Тбилиси: «Мецниереба», 2003, с. 85.

[2] Шишлов А.В., Колпакова А.В. Поселение Майкопской культуры у станицы Натухаевской в приморской части северо-западного Кавказа. рис. 4-5; Шишлов А.В., Колпакова А.В., Федоренко Н.В. Исследования поселения Майкопской культуры у ст. Натухаевской //Проблемы хронологии и периодизации археологических памятников культур Северного Кавказа. XXVI «Крупновские чтения» по археологии Северного Кавказа. Тезисы докладов. Магас, 2010. с. 376.

[3] Müseyibli N.Ə. Böyük Kəsik eneolit dövrü yaşayış məskəni, s. 26, 121-122.

[4] Müseyibli N.Ə. Göstərilən əsəri. s. 32, 127-128.

[5] Алиев Н., Нариманов И. Культура Северного Азербайджана в эпоху позднего энеолита. с. 52.

mədəniyyətinə aid II Yarımtəpədən məlumdur.[1] Natuxayevskidə aşkar edilmiş bütün bu əşyaların hər hansı bir nümunəsi digər Maykop mədəniyyəti abidələrində tapılmamışdır.

Beləliklə, yuxarıdakı təhlillərdən belə bir nəticəyə gəlmək olar ki, şimala hərəkət edən Mesopotamiya tayfalarının bir qrupu Cənubi Qafqazda müəyyən fasilədən sonra öz hərəkətlərinə davam edərək tranformasiyalara məruz qalmış xalkolit ənənələri ilə Şimali Qafqazda məskunlaşmışlar və orada meydana çıxan xalkolit səciyyəli Maykop mədəniyyəti də bu ənənələr əsasında formalaşmışdır.[2] Yəni miqrasiyanın erkən mərhələsi Cənubi Qafqazla birgə Şimali Qafqazın da bəzi ərazilərini müəyyən, təxminən bir-iki əsrlik xronoloji fərqlə əhatə etmişdir. Cənubi Qafqazdan Şimali Qafqaza köçərək burada məskunlaşan tayfalar keramika və metal istehsalı ənənələrini inkişaf etdirərək o dövr üçün ən yüksək səviyyəyə qaldırmışlar. Qəbir abidələrinin strukturunda müəyyən dəyişikliklər (kurqan örtüklərinin həcmi böyümüş, qəbirlərin tip müxtəlifliyi artmışdır) baş versə də dəfn adətlərinin bir sıra xüsusiyyətləri saxlanmışdır. Maykop mədəniyyəti Leylatəpə ənənələrini daha da inkişaf etmiş formada davam etdirmişdir.

Beləliklə, Şimali Qafqazın digər mədəniyyətlərinin təsirinə məruz qalmayan, sırf Ön Asiya mənşəli, e.ə. IV minilliyin birinci yarısına aid məxsus Maykop mədəniyyəti Leylatəpə mədəniyyəti ilə bütün ənənələri baxımından genetik bağlıdır.

Fikrimizcə hər iki mədəniyyət səciyyəvi ənənələri ilə “Leylatəpə - Maykop Mədəni-Tarixi Birliyində” birləşirlər.

Altıncı yarımfəsil “Leylatəpə və Sioni: fərqli mədəniyyətlər” adlanır. Bir qrup saxsı qabların ağız kənarının çərtmələrlə naxışlanması üsuluna Cənubi Qafqazın e.ə. V min. sonu-IV minilliyin əvvəlinə aid əksər abidələrində rast gəlinir. Ağız kənarı çərtməli qablar əsasən Gürcüstandakı Sioni yaşayış yerindən tapılmışdır. Bunu əsas götürən bəzi müəlliflər[3] “Sioni mədəniyyətinin” bütün Qafqazda yayıldığını iddia edir və səhvən Leylatəpə mədəniyyəti abidələrini də “Sioni tipli” hesab edirlər. Berikldeebi yaşayış yerinin Leylatəpə mədəniyyətinə aid 25 sm-lik alt qatını bu abidəni qazmış

---

[1] Мунчаев Р.М., Мерперт Н.Я. Раннеземледельческие поселения Северной Месопотамии. М: “Наука” 1981. с. 231.

[2] Müseyibli N.Ə. Göstərilən əsəri. s. 56, 153.

[3] Кушнарева К.Х. Южный Кавказ в IX-II тыс. до н.э. Санкт-Петербург 1993. с. 29; Лионне Б., Алмамедов К., Буке Л., Курсье А., Джелилов Б., Хусейнов Ф., Лут С., Махарадзе З., Рейнард С. Могильник эпохи позднего энеолита Союг Булаг в Азербайджане //«Российская археология, 2011, №1, с. 48-61.

arxeoloqlar Sioni ilə eyniləşdirməyə çalışmışlar.[1]

Bu məsələ ilə əlaqədar, ilk növbədə qeyd etmək lazımdır ki, tədqiqatçılar Leylatəpə mədəniyyəti abidələrinin Sioni tipli hesab edilməsinin düzgün olmadığını, Sioni tipli abidələrin Leylatəpə abidələrindən daha qədimə aid olduğunu dəfələrlə yazmışlar. Eyni zamanda göstərilmişdir ki, Sioni-Tsopi tipli abidələrin keramika məmulatı Leylatəpə və Maykop mədəniyyətləri keramikasından tam fərqlidir.[2]

Digər tərəfdən qeyd etmək lazımdır ki, "Sioni mədəniyyəti" və ya "tipi" adlandırılan bu kompleksin əsas səciyyəvi xüsusiyyətləri arxeoloji qazıntıların məhdudluğu səbəbindən hələ tam müəyyən edilməmişdir. Məhz bu səbəbdən Sioni yaşayış yerinin özünəməxsus tapıntıları belə bir müstəqil mədəniyyətin mövcudluğunun irəli sürülməsi üçün çətinliklər yaradır.[3] Bununla belə Sioni tipli abidələrin aşkar edilməsi onların Qafqazın digər eneolit komplekslərindən xronoloji, coğrafi və arxeoloji tapıntılar baxımından fərqli bir mövqedə olduğunu göstərir. Sioni tipli abidələr bütün tapıntıları ilə Gürcüstanın qərb bölgələrinin neolit kompleksləri ilə daha çox bağlıdır və çox ehtimal ki, Sioni abidələri həmin neolit ənənələri daşıyıcılarının şərq istiqamətinə hərəkəti nəticəsində meydan çıxmışlar.[4]

Sioni və Leylatəpə tipli abidələri bir mədəniyyətdə birləşdirmək üçün heç bir tutarlı əsas yoxdur və onlar arasındakı köklü fərqləri aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Sioni tipli yaşayış yerləri radiokarbon analizləri əsasında e.ə. V minillikdə mövcud olmuşdur.[5] Leylatəpə mədəniyyəti abidələri isə radiokarbon analizləri əsasında e.ə. IV minilliyin birinci yarısına aiddir. Yalnız Böyük Kəsikdən bir analiz e.ə. V minilliyin son əsrlərini göstərmişdir.[6]

2. Sioni yaşayış yerində aşkar edilmiş memarlıq qalıqları daşlardan quru

---

[1] Глонти Л.И., Джавахишвили А.И. Новые данные о многослойном памятнике эпохи энеолита–поздней бронзы в Шида Картли–Бериклдееби.

[2] Алиев Н., Нариманов И. Культура Северного Азербайджана в эпоху позднего энеолита;

[3] Джапаридзе О. На заре этнокультурной истории Кавказа. Тбилиси: Издательство Тбилисского университета, 1989, с. 340.

[4] Джапаридзе О. Göstərilən əsəri, с. 349.

[5] Кавтарадзе Г. К хронологии эпохи энеолита и бронзы Грузии. Тбилиси: «Мецниереба», 1983, с. 46-58; Джапаридзе О. Göstərilən əsəri, с. 348; Кореневский С.Н. 2008. Радиокарбонные даты эпохи позднего энеолита – начала раннего периода бронзового века Кавказа по данным культуры накольчатой жемчужной керамики предкавказья и майкопской культуры. с. 79.

[6] Müseyibli N.Ə. Böyük Kəsik eneolit dövrü yaşayış məskəni.

hörülmüş tikililərdən ibarətdir. Divarların eni 1 m-ə qədərdir.[1] Leylatəpə mədəniyyəti abidələrinin memarlığı isə əsasən çiy kərpic tikililərinə və yerüstü karkas tipli yüngül tikililərə əsaslanır.[2] Qalayeri yaşayış məskənində isə gil qatlarından ibarət tikililər aşkar edilmişdir. Sionidə belə tikililər məlum deyildir.

3. Leylatəpə mədəniyyətinin demək olar ki, tədqiq olunmuş bütün yaşayış yerlərində saxsı qablarda uşaq qəbirləri aşkar edilmişdir. Eyni zamanda bu mədəniyyətə aid yaşayış yerində böyük (yaşlı) insanlara aid torpaq qəbirləri məlumdur. Bu vaxtadək Leylatəpə mədəniyyətinə aid 20-dən artıq kurqan qazılmışdır.

Sioni mədəniyyətinin qəbir abidələri, eyni zamanda yaşayış yerləində qəbirlərin olması barədə ümumiyyətlə hər hansı dolğun məlumat yoxdur. Sioni dövründə ümumiyyətlə Cənubi Qafqazda kurqanlar məlum deyildir.

4. Ən çoxsaylı və səciyyələndirici tapıntılar, digər abidələrdə olduğu kimi Sionidə də məhz keramika məmulatıdır. Sioni qabları əsasən qeyri-üzvi – qum, obsidian ovuntusu, slyuda qatışıqlı gildən əldə hazırlanmışdır. Bitki qatışıqlı gildən hazırlanmış qablara təsadüfi hallarda rast gəlinir.[3] Dulus çarxı Sioni əhalisinə məlum deyildir.

Leylatəpə mədəniyyətinin keramikası başlıca olaraq yalnız bitki qatışıqlı və təmiz gildən dulus çarxında formalaşdırılmışdır.[4] Böyük Kəsikdə belə qablar ümumi keramika məmulatının 61%-ni təşkil edir.[5]

Sioni qabları yastı oturacaqlıdır. Xaricə meylli ağız kənarından gövdəyə keçid tədricidir.[6] Təsadüfi istisnalar nəzərə alınmazsa, Leylatəpə mədəniyyəti qabları yuvarlaq altlıqlıdır və "keyfiyyətli keramika" qablarının qıfşəkilli ağız kənarından gövdəyə keçid iti bucaq altındadır. Belə qablar Sioni üçün xarakterik deyildir.[7] Məhz bu prinsipial əlamətlər Leylatəpə mədəniyyəti keramikasının fərqləndirici xüsusiyyətlərindəndir və belə qablar Sionidə aşkar edilməmişdir. Leylatəpə mədəniyyəti üçün müəyyənedici səciyyəvi "işarəli keramika" Sioni abidələrindən məlum deyildir.

---

[1] Джапаридзе О. Göstərilən əsəri, c. 338.
[2] Алиев Н., Нариманов И. Культура Северного Азербайджана в эпоху позднего энеолита; Müseyibli N.Ə. Böyük Kəsik eneolit dövrü yaşayış məskəni.
[3] Джапаридзе О. На заре этнокультурной истории Кавказа. с. 338.
[4] Алиев Н., Нариманов И. Культура Северного Азербайджана в эпоху позднего энеолита; Müseyibli N.Ə. Böyük Kəsik eneolit dövrü yaşayış məskəni.
[5] Müseyibli N.Ə. Göstərilən əsəri.
[6] Джапаридзе О. Göstərilən əsəri, c. 339.
[7] Алиев Н., Нариманов И. Göstərilən əsəri. c. 88.

5. Sioni yaşayış yerində aşkar edilmiş kəsici daş alətlər əsasən obsidiandan hazırlanmışdır. Çaxmaqdaşından və digər cinsli daşlardan hazırlanmış alətlər 6%-dən bir qədər artıqdır.[1] Belə bir vəziyyət bütövlükdə Cənubi Qafqazın yerli neolit və xalkolit kompleksləri üçün səciyyəvidir.

Lakin Leylatəpə mədəniyyəti üçün müxtəlif cinsli çaxmaqdaşından düzəldilmiş alətlərin say üstünlüyü əsas xüsusiyyətlərdən biridir. Misal olaraq Sioni ilə eyni coğrafi bölgədə yerləşən Leylatəpə tipli Böyük Kəsik yaşayış yerini göstərmək olar. Burada çaxmaqdaşından düzəldilmiş alətlər 89,6%, obsidiandan alətlər isə cəmi 10,4% təşkil edir ki, bu da məhz Ön Asiya ənənələri ilə sıx bağlıdır.[2] Lakin Sionidən nisbətən daha uzaq məsafədə yerləşən Qalayerində obsidian məmulatı az fərqlə üstünlük təşkil edir. Eyni zamanda arxaik (mezolit-neolit) səciyyəli mikrolit tipli daş alətlərin tapılması da Leylatəpə mədəniyyəti üçün xarakterikdir.

Beləliklə, Leylatəpə və Sioni mədəniyyətləri ayrı-ayrı xronoloji mərhələlərə aid olub müxtəlif mənşəli və fərqli xüsusiyyətlərə malikdirlər. Leylatəpə mədəniyyəti daha çox Ön Asiya, Sioni isə yerli Qafqaz mədəni ənənələrinin daşıyıcılarıdırlar. Keramika məmulatının yalnız bir oxşar xüsusiyyəti əsasında xronoloji və mədəni baxımdan biri-birindən tam fərqli kompleksləri eyni mədəniyyətdə birləşdirmək mümkün deyil. Digər tərəfdən, qabların səthinin daraqvari alətlə işlənməsi üsulu e.ə. V-IV minilliklərdə Şərqi Anadolu-Cənubi Qafqaz regionundakı müxtəlif mənşəli bütün xalkolit mədəniyyətlərində rast gəlinir. Buna görə də "daraqlı" keramikanı yalnız Sioni tipli abidələrlə bağlamaq düzgün deyil.

VII fəslin sonuncu, yeddinci yarım bölməsi Leylatəpə və Kür-Araz mədəniyyətlərinin qarşılıqlı əlaqələri məsələsinə həsr olunmuşdur. Leylatəpə mədəniyyətinin Qafqazın Kür-Araz mədəniyyəti ilə qarşılıqlı əlaqələrinin olub-olmaması son illərin araşdırılmaları kontekstində maraq doğuran məsələlərdən biridir. Son zamanlara qədər Kür-Araz mədəniyyətinin eneolit mədəniyyətlərindən, o cümlədən Leylatəpə mədəniyyətindən sonra meydana çıxması ənənəvi olaraq qəbul edilmişdir. Lakin yeni tədqiqatlar nəticəsində aşkar edilmiş fərqli materiallar bu məsələyə yenidən baxılması zərurətini yaratmışdır. Belə ki, Leylatəpə mədəniyyətinə aid II Poylu yaşayış yerində bu mədəniyyətin materialları ilə yanaşı bir neçə Kür-Araz qabları aşkar edilmişdir. Bundan əlavə, çox ehtimal ki, Leylatəpə mədəniyyətində rast gəlinən sümükdən iy başlıqları, gildən metal alət (balta) qəlibi, zoomorf fiqur Kür-Araz abidələrində geniş yayılmışdır

[1] Джапаридзе О. Göstərilən əsəri, c. 340.
[2] Müseyibli N.Ə. Böyük Kəsik eneolit dövrü yaşayış məskəni.

və onların Leylatəpə mədəniyyətindən mənimsənildiyini ehtimal etmək mümkündür. Eyni zamanda Leylatəpə mədəniyyətinin kurqanlarda dəfnetmə adətinin Kür-Araz kurqanlarının meydana çıxmasına təsir göstərməsi istisna deyildir.[1] Bundan əlavə, Kür-Araz mədəniyyətinin bəzi silindrik boğazlı qablarının prototipinə Leylatəpə abidələrində rast gəlinir.

Eyni zamanda qeyd etmək lazımdır ki, bu əlaqələr Leylatəpə mədəniyyətinin bütün arealı üzrə hər yerdə eyni səviyyədə izlənilmir. Bu mədəniyyətlər arasında əlaqələr sıx, uzun müddətli və davamlı olmamışdır.

Bütün tapıntıların əksinə olaraq bəzi müəlliflər heç bir səbəb olmadan Leylatəpə mədəniyyətini "Proto – Kür-Araz" mədəniyyəti adlandırmağı təklif edirlər.[2] Leylatəpə və Kür-Araz mədəniyyətləri arasında müəyyən əlaqələrin olması şübhə doğurmasa da onlar arasında heç bir irsi bağlılıq olmamışdır və birinci ikincinin yaranma mənbəyi deyildir. Buna görə də geniş izaha ehtiyac görmədən addəyişmə təklifinin perspektivsiz olduğunu hesab edirik.[3]

Beləliklə, Qafqazda təşəkkül tapmış Leylatəpə arxeoloji mədəniyyəti yaşayış yerlərinin və qəbir abidələrinin (saxsı qab qəbirləri, kərpicdən qurulmuş qəbir kameraları və s.) tipi, keramika məmulatının başlıca xüsusiyyətləri ilə Şərqi Anadolu-Şimali Mesopotamiyanın (Yuxarı Dəclə-Fərat hövzəsi) son xalkoliti mənşəlidir. Daha konkret, bu mədəniyyətin mənşəyi Arslantəpənin VII təbəqəsi, Amuk F mərhələsi, Təpə Qavranın XII-IX təbəqələri, Tell Xəznənin alt yarusları, Tell Hamoukar, Oylum Höyük və bu qəbildən olan digər abidələrin mədəni ənənələri ilə genetik bağlıdır. Əsasən də Qalayeri yaşayış məskəninin tapıntıları, xüsusilə də işarəli və daraqlanmış keramika daha çox Şərqi Anadolu (Arslantəpə VII, Amuk F) abidələri ilə bağlıdır. Bütün bu abidələr Uruk mədəniyyətinin Cənubi Mesopotamiyadan Şimali Mesopotamiya və Şərqi Anadoluya yayılmasına qədərki dövrə (e.ə. V minilliyin sonu – IV minilliyin əvvəlinə) aid olub, son xalkolit mədəniyyətlərinə aiddirlər. Leylatəpə mədəniyyəti məhz bu ənənələrlə bağlı olduğundan onun materiallarında Uruk mədəniyyətinin heç

---

[1] Müseyibli N.Ə. Göstərilən əsəri. c. 68.

[2] Пицхелаури К. Некоторые спорные вопросы терминологии, хронологии и периодизации эпохи бронзы и железа Кавказа //Археология, этнология, фольклористика Кавказа. Сборник кратких содержаний докладов международной научной конференции. Тбилиси, 2010, с. 245; Pitskhealauri K. Archöologische befunde in südkaukasien aus der "proto-kura-araxes" kulturperiode //Archaeology of Caucasus. Tbilisi, 2009-2010, 45-48.

[3] Müseyibli N.Ə. Leylatəpə arxeoloji mədəniyyəti: Ön Asiya kökləri və Qafqaz eneolitində yeri // «Azərbaycan arxeologiyası və etnoqrafiyası», 2011, №2, s. 12.

bir təsiri izlənilmir və müvafiq olaraq Leylatəpə mədəniyyətini Uruk mənşəli hesab etmək olmaz. Ümumiyyətlə, e.ə. IV minilliyin ortalarında Cənubi Mesopotamiyadan başlamış və Şimali Mesopotamiyanı əhatə etmiş "Uruk ekspansiyası"nın Cənubi Qafqazda yayılmasını göstərə bilən heç bir abidə hələlik aşkar edilməmişdir və dəbdə olan bu terminin Leylatəpə mədəniyyəti ilə hər hansı bağlılığı yoxdur.

Şimali Qafqazın Maykop mədəniyyətinin erkən mərhələsi Leylatəpə mədəniyyəti ilə eyni mənşəli olub Uruk mədəniyyəti ilə heç bir bağlılığı yoxdur. Cənubi Qafqazda heç bir Uruk təsirinə məruz qalmayan Leylatəpə mədəniyyəti abidələrinin materialları, xüsusi ilə Şərqi Anadolu tipli işarəli keramika mədəni təbəqənin bütün səviyyələrində aşkar edilir. Yəni, Leylatəpə abidələrinin mədəni təbəqələrinin bütün səviyyələrinin keramikası, bəzi istisnalar nəzərə alınmazsa, vahid xarakterli olub Uruk təsirindən uzaqdır. Bu, xüsusilə Qalayerinin qazıntıları ilə daha əyani müşahidə edilir. Leylatəpə mədəniyyətini isə Cənubi Qafqazda demək olar ki, heç bir fasilə olmadan, erkən mərhələsi Leylatəpə mədəniyyəti ilə sinxron olan Kür-Araz mədəniyyəti əvəz edir. Buna görə də Maykop mədəniyyətinin sonrakı mərhələsinin də Uruk mədəniyyətinin təsiri altında formalaşması fikri kifayət qədər mübahisəlidir. Bu fikri sübuta yetirmək üçün Cənubi Qafqazda Uruk mədəniyyəti xarakterli abidə və ya kütləvi keramika məmulatının aşkar edilməsi vacibdir. Hələlik belə tapıntılar Cənubi Qafqazda məlum deyildir.

Dissertasiyanın **"Nəticə"** hissəsində tədqiqatdan irəli gələn əsas nəticələr ümumiləşdirilmişdir.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı əsərlərində öz əksini tapmışdır:**


1. Eneolit dövrü I Böyük Kəsik yaşayış məskənində arxeoloji qazıntıların nəticələri // "Azərbaycan arxeologiyası və etnoqrafiyası", № 1, 2006, s. 11-27.
2. Leylatəpə mədəniyyəti tayfalarının gil qablarda dəfn adəti (etnoarxeoloji tədqiqat) // "Azərbaycan arxeologiyası və etnoqrafiyası", 2007, №1, s. 20-27.
3. Böyük Kəsik eneolit dövrü yaşayış məskəni. Bakı: Nafta-Press, 2007, 228 s.
4. İkinci Poylu yaşayış yerinin keramikası // «Azərbaycan arxeologiyası», 2008, № 1-2. s. 25-39.
5. Eneolit dövrü II Poylu yaşayış yerində arxeoloji qazıntılar //«Azərbaycan arxeologiyası və etnoqrafiyası», 2008, №1, s. 17-26.

6. Ethnocultural Connections between the Region of the Near East and the Caucasus in the IV$^{th}$ millennium BC // Azerbaijan – Land between East and West. Transfer of knowledge and technology during the “First Globalization” of the VII$^{th}$ – IV$^{th}$ millennium BC. International Symposium Baku. Berlin 2009.
7. Eneolit dövrü II Poylu yaşayış yerinin daş məmulatı // Azərbaycan arxeologiyası, Bakı: 2009, №1, s. 41-52.
8. Leylatəpə mədəniyyəti abidələrindən tapılmış gildən əmək alətləri və müxtəlif əşyalar // «Azərbaycan arxeologiyası və etnoqrafiyası», 2009, №2. Bakı: 2010, s. 5-18.
9. Gəncə – Qazax bölgəsindəki Leylatəpə mədəniyyəti abidələrinin daş məmulatı // AMEA-nın Xəbərləri. Tarix, fəlsəfə, hüquq seriyası, 2010, №1-2, s. 165-186.
10. The late eneolithic burial mounds (barrous, tumulis) of Akstafa district// Archaeology of Caucasus, № 2-3, Tbilisi: 2009-2010, p. 39-44.
11. Soyuqbulaq kurqanlarının qazıntıları //«Azərbaycan arxeologiyası və etnoqrafiyası», 2010, №1, Bakı: 2010, s. 5-29.
12. Leylatəpə arxeoloji mədəniyyətinin öyrənilmə tarixi //AMEA Tarix İnstitutunun “Elmi əsərləri”, 2010, № 32, s. 15-23.
13. К вопросу о ближневосточных корнях лейлатепинской культуры //Вестник Института истории, археологии и этнографии Дагестанского Научного Центра РАН. Махачкала, 2011, №3(27), с. 50-55.
14. Azərbaycanın qərb bölgəsində Leylatəpə mədəniyyətinin yaşayış məskənləri // Azərbaycan arxeologiyası 2011, №1, s. 22-34.
15. Leylatəpə arxeoloji mədəniyyəti: Ön Asiya kökləri və Qafqaz eneolitində yeri // «Azərbaycan arxeologiyası və etnoqrafiyası», 2011, №2, s. 5-10.
16. Курганный могильник позднего энеолита у с. Союгбулаг в Азербайджане //Российская археология, №1, Москва, 2012. с. 16-25.
17. Лейлатепинская культура эпохи энеолита между Передней Азией и Северным Кавказом // Записки ИИМК РАН. №7, С.Петербург 2012.
18. Leylatəpə mədəniyyəti keramikasındakı işarələr // Azərbaycan arxeologiyası və etnoqrafiyası. 2012, №1. s. 11-38.
19. Leylatəpə mədəniyyəti abidələrinin sümük məmulatı // Azərbaycan arxeologiyası, 2012, №1, s. 28-38.
20. Керамические сосуды энеолитического поселения Беюк Кесик в Азербайджане // Гілея. Збірник наукових праць. Національний педагогічний університет імені М.П.Драгоманова Українська

Академія Наук Випуск 72 (№ 5), Київ 2013, с. 270-275.
21. Leylatəpə mədəniyyətinə aid Qalayeri yaşayış məskəninin daşdan əmək alətləri // Tarix və onun problemləri. 2013, №3, s. 243-250.
22. Qəbələ rayonundakı Qalayeri xalkolit dövrü yaşayış məskəni Ön Asiya – Qafqaz miqrasiyaları kontekstində // Azərbaycan arxeologiyası və etnoqrafiyası. 2013, №1. s. 23-33.
23. К вопросу о переднеазиатско-кавказской культурно-исторической общности позднего халколита // Материалы международной научной конференции Археология и этнография Азербайджана в период независимости». Баку: «Университет Хазар», 2013, стр. 57-60.
24. Поселение лейлатепинской культуры Галери в Азербайджане // Е.И.Крупнов и развитие археологии Северного Кавказа. XXVIII Крупновские чтения. Материалы Международной научной конференции. Москва 2014, стр. 82-84.
25. Metal of Leilatepe culture // Ascension to the crowns of archeology. Collection of materials of "Ancient and medieval states on the territory of Kazakhstan" international scientific conference devoted to the 90th anniversary of K.A. Akishev. Almaty 2014.
26. Leylatəpə mədəniyyətinin xronologiyası və dövrləşdirilməsi // Azərbaycan MEA-nın Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, 2014, №1, s. 91-109.
27. Leylatəpə mədəniyyətinin metal istehsalı Ön Asiya-Qafqaz metallurgiyası kontekstində. "Azərbaycan arxeologiyası və etnoqrafiyası" jurnalı. 2014, № 1. Bakı: 2014, s. 12-46.
28. Leylatəpə mədəniyyəti kurqanlarının mənşəyi "kurqanlar və qədim hind-avropalılar" nəzəriyyəsi kontekstində // Azərbaycan MEA-nın Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, 2015, №1, s. 3-9.
29. Ближневосточно-кавказские связи в IV тыс. до н.э. в контексте лейлатепинской и майкопской культур // Кавказ как связующее звено между Восточной Европой и Передним Востоком: диалог культур, культура диалога (к 140-летию Александра А. Миллера). Материалы Международной нучной археологической конференции и Гумбольдт-лектория. Санкт-Петербург: 2015, с. 121-125.
30. Azərbaycanın xalkolit dövrü mədəniyyəti. Bakı: Turxan NPB, 2015, 220 s.

**Н.А.Мусеибли**

## Лейлатепинская культура в переднеазиатско-кавказском халколите

## РЕЗЮМЕ

Диссертация на соискание ученой степени доктора наук по истории посвящена лейлатепинской археологической культуре Азербайджана IV тыс. до н.э.

Диссертационная работа состоит из «Введения», 7 глав, заключения, списка использованной литературы и приложенного иллюстративного материала.

Во введении нашли отражение актуальность темы, хронологические рамки исследования, степень изученности темы, источниковедческая база и задачи, новизна, научная и практическая значимость, апробация, исследования.

I глава посвящена к «Истории изучения лейлатепинской археологической культуры»

Во II главе «Поселения лейлатепинской культуры» нашли отражение такие вопросы, как общая характеристика поселений, ареал распространения этих памятников, архитектура и строительная техника.

В III главе «Погребальные памятники и обряды захоронения» исследованы погребальные памятники лейлатепинской культуры в контексте с аналогичными погребениями Передней Азии и Кавказа.

В IV главе «Керамические изделия лейлатепинской культуры, как важнейший показатель Переднеазиатско-Кавказской традиции позднего халколита» в контексте связей с Переднеазиатско-Кавказским керамическим материалом общая характеристика керамического материала и исследована технология изготовления керамических изделий.

В V главе «Каменные и костяные изделия памятников лейлатепинской культуры исследованы и проанализированы типологические и функциональные особенности каменных и костяных изделии и, в связи с этим, хозяйство и занятость населения.

В VI главе «Металлообработка лейлатепинской культуры в контексте Переднеазиатско-Кавказской металлургии» проанализированы, выявленные на памятниках лейлатепинской культуры,

металлические предметы и орудия труда, дана их всесторонняя интерпретация в контексте металлургии и металлообработки Передней Азии и Кавказа.

В VII главе «Историко-хронологическое место лейлатепинской культуры в системе памятников периода халколита Передней Азии и Кавказа» даны разъяснения итоговым выводам по всем, исследуемым в диссертации, вопросам, определено место лейлатепинской культуры в халколите Передней Азии – Кавказа.

В «Заключении» диссертации изложены основные итоги проведенного исследования.

**N.A.Museyibli**

## Leilatepe culture in the Near East - Caucasus Chalcolithic era

## SUMMARY

The dissertation for Doctor of History is dedicated to Leilatepe archaeological culture spread in the first half of the 4th millennium BC in the South Caucasus, especially in the territory of Azerbaijan.

The dissertation covers the “Introduction”, seven chapters, “Conclusion”, References and Illustrations.

The **”Introduction”** deals with topicality, chronological framework, level of studying of the subject, source database, goals and objectives, scientific innovation, theoretical and practical importance and approbation of the scientific research.

**Chapter I** titled as the **”History of the studying of Leilatepe archaeological culture”** shows that untill 2004, Leilatepe culture was known on the monument of the same name dug only in Karabakh. In the last decade investigations have expanded and monuments of this culture began to be studied in wider area.

**Chapter II** titled as the **”Settlements of the Leilatepe culture”** reflects general features of the settlements, area of distribution of the monuments, the Near East- Caucasus analogues of their architecture and construction.

In **Chapter III** titled as **”Grave monuments and burial traditions”** are investigated kurgans of the Leilatepe culture, pitcher graves and soil graves, and analyzed in the context of similar monuments of Near East and the Caucasus. Through the investigation of Leilatepe culture kurgans is grounded that the origin of the kurgan culture in the Caucasus is not related with Indo-Europeans.

**Chapter IV** titled as **”The ceramic ware of the Leilatepe culture as the main indicator of the Near East Caucasus late Chalcolithic traditions”** deals with the analyze of general features of ceramic ware and manufacturing technology of pottery products in the context of Near East - Caucasus.

**Chapter V** is dedicated to **”The stone and bone ware of Leilatepe culture monuments”**. The typological and functional characteristics of stone and bone products, economy and occupation of population was analyzed there.

In **Chapter VI** called as **"The Leilatepe culture metal production in the context of the Near East - Caucasus metallurgy"** have been analyzed the general characteristics of early metal-working of the Caucasus and Near East, metal-working tools and metal objects found at Leilatepe culture monuments, and is given the interpretation of metal products in the context of Near East -Caucasus.

**Chapter VII** is called **"The historical-chronological place of the Leilatepe culture among the Chalcolithic complexes of the Near East-Caucasus"**. In this chapter, almost all the analyses made in the dissertation have been summarized, and have been analyzed the place of the Leilatepe culture in the system of the Near East -Caucasus Chalcolithic cultures.

In the **"Conclusion"** have been summarized the final propositions of the research work.

Format 60x84 $^{1}/_{16}$.  Tiraj 100.
Turxan NPB

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ИСТОРИИ ИМ. А. А. БАКИХАНОВА**

*На правах рукописи*

**НАДЖАФ АЛЕСКЕР оглы МУСЕИБЛИ**

# ЛЕЙЛАТЕПИНСКАЯ КУЛЬТУРА В ПЕРЕДНЕАЗИАТСКО-КАВКАЗСКОМ ХАЛКОЛИТЕ

Специальность: 5505.02 – Археология

# А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание ученой степени
доктора наук по истории

БАКУ – 2015